www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 fevral 2016-cı il Bazar ertəsi № 23 (6344) Qiymәti 60 qəpik

**Xəbər**

## Banklardan borclulara daha "əcəl zəngi" gəlməyəcək

yazısı səh.10-da

**Gündəm**

### Böyük öndər M.Ə.Rəsulzadə heykəli önündə anıldı



Cümhuriyyətin və istiqlalımızın qurucusunun xatirəsi 132-ci doğum günündə Novxanıda yad edildi...

yazısı səh.3-də

### Bu gün parlamentdə hökumət məhşər ayağına çəkilə bilər

yazısı səh.4-də

### Türkmənistanda meyiti tapılan neftçi Qarabağ veteranı imiş

yazısı səh.3-də

### Etirazlar səngidi, yoxsa fırtına öncəsi sükut? - Ekspert rəyləri

yazısı səh.6-da

### "Bütün kozırlar indi Bakının əlindədir"

AŞPA-dakı son müzakirələr Qarabağ ətrafında yeni situasiya, Azərbaycana isə unikal imkanlar açıb...

yazısı səh.11-də

### Ölkəmizə pənah gətirən erməni ailəsindən xəbər var...

yazısı səh.4-də

### Rusiya və Türkiyə arasında növbəti təyyarə qalmaqalı - ara yenə qarışdı

Türkiyə Silahlı Qüvvələri hazırlıq vəziyyətinə gətirildi

yazısı səh.9-da

### Əməkdaşımız Qazaxdakı ağır sosial-iqtisadi durumdan yazır

yazısı səh.12-də

### Keçmiş xanımı evlilik proqramına çıxan Xalq artisti: "Onu Türkiyəyə bacısı göndərib..."

yazısı səh.14-də

### Yollarımız niyə son illər qan canağına dönüb? - araşdırma

yazısı səh.15-də

### Hansı azərbaycanlı məşhurlar musiqi alətində ifa edə bilir?

yazısı səh.14-də

## Prezident iqtidarını FV-də yoxlayır

# HAKİMİYYƏT KOMANDASI "SƏHRA REJİMİ"NƏ KEÇİR

Hökumətdə hamının əvəzinə İlham Əliyev işləyir; indi kadrların irəli çıxması zamanı gəlib; amma onlar bu dövrə öyrəşə bilmirlər; zamanları bitib; yıpranmış, yorulmuş "yas müxalifəti" də illərdir böhran yaşayır və neftin qiyməti 100 dollar olanda vəziyyətləri necə idisə, indi də elədir...




yazısı səh.5-də

## Rusiya Gürcüstana yeni müdaxilə planı hazırlayır - Azərbaycan da hədəfdə

Gürcü prezidentin ABŞ və Avropa Birliyi ölkələri səfirləri ilə birgə təcili Pankisi dərəsinə baş çəkməsinin ilginc pərdəarxası; Qafqaz yenidən qarışa bilər...

yazısı səh.8-də



*Vahid Əhmədov:*

### "Hökumət 10 il bundan qabaq dərs götürməli idi..."

yazısı səh.7-də



### Səməd Seyidovun AŞPA nümayəndə heyəti sədrliyindən çıxarılması xəbəri yayıldı

yazısı səh.5-də



*Fazil Mustafa:*

### "İcra hakimiyyətləri ASAN-laşdırılmalıdır"

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016

# "Rəsulzadənin xatirəsi birləşdirici amilə çevrilməlidir"

## Sabir Rüstəmxanlı: "Hərə öz dəstəsi ilə ziyarətə gəlməyə başlayanda..."

**Hər il olduğu kimi, yanvarın 31-də Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin doğum günü ilə əlaqədar Bakının Novxanı qəsəbəsində yerləşən abidəsi ziyarət olunub. Ənənəvi olaraq anım tədbirində siyasi partiya və təşkilatların nümayəndələri, ziyalılar, sadə vətəndaşlar iştirak edib.**



Sabiq deputat, VHP sədri Sabir Rüstəmxanlı isə bu ziyarətin pərakəndə şəkildə qeyd edilməsindən şikayətlənib. O, bu barədə musavat.com-a açıqlamasında bildirib: "Çox arzulayardım ki, Rəsulzadənin xatiəsi birləşdirici amilə çevrilsin. Bir vaxtlar mən də hər il onun abidəsini ziyarət edirdim və onda bütün rəsmi partiyalar bir yerdə gedirdi. Sonra isə param-parça şəklində, hərə öz dəstəsi ilə gəlməyə başladı və mən həmin ziyarəti dayandırdım. Amma Ankaraya hər gedişimdə Rəsulzadənin orda yerləşən məzarı üstünə gedirəm. İmkan düşdükcə Novxanıdakı abidəsini də ziyarət edirəm. Arzu edirəm Rəsulzadəni ziyarət onun ideyalarının, yolunun davamçılarının birgə ziyarətinə çevrilsin".

❑ Xalidə GƏRAY

# Barak Obama məscidə gedəcək



**ABŞ prezidenti Barak Obama fevralın 3-də Baltimor şəhərində yerləşən məscidi ziyarət etməyi planlaşdırır. Musavat.com xəbər verir ki, bu məlumatı "Frans Press" agentliyi Ağ Ev administrasiyasına istinadən verib. Bu ziyarət B.Obamanın məscidə ilk ziyarəti deyil. O, 2010-cu ildə Cakartada olarkən məscidi ziyarət edib. Ağ Ev nümayəndəsi qeyd edib ki, ABŞ prezidenti Baltimorda müsəlman cəmiyyəti təşkilatının nümayəndələri ilə də görüşəcək.**

# Neft 55 dollar olacaq



**Bir sıra qiymətləndirmələrə əsasən, neftin bir barelinin qiyməti 2017-ci ildə 55 dollara çata bilər. Bunu Trend-ə Yaxın Şərq üzrə analitik, Dubayda Risklərin İdarə olunması İdarəsinin müşaviri Teodor Karasik deyib.**

Neftin qiymətinin cari artımının müvəqqəti olduğunu bildirən ekspert qeyd edib ki, neft bazarında vəziyyətin inkişafını heç kim dəqiq bilə bilməz. Onun sözlərinə görə, neft bazarında indiki vəziyyətin günahkarı ABŞ, Rusiya və İranı zəiflətmək məqsədilə iqtisadi və siyasi böhran yaratmaq istəyən Səudiyyə Ərəbistanıdır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Qənirə Paşayeva: "XİN Slovakiya ilə məsələni araşdırmalıdır"

**Bizi Robert Uolterin "Dağlıq Qarabağda və Azərbaycanın digər işğal olunmuş ərazilərində zorakılığın artması" məruzəsinə AŞPA-da səsvermə zamanı ən çox təəccübləndirən Slovakiyanın mövqeyi oldu. Bu barədə haqqın.az saytına müsahibəsində millət vəkili, AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü Qənirə Paşayeva deyib.**



Q.Paşayevanın sözlərinə görə, həmin ölkənin nümayəndə heyətinin üzvləri nəinki Azərbaycanın haqlı mövqeyini dəstəkləməyiblər, hətta bu məruzənin əleyhinə səs veriblər. "Hesab edirəm ki, bizim XİN sözügedən ölkənin nümayəndələrini bu məruzənin əleyhinə səs verməyə sövq edən səbəbləri ciddi araşdırmalıdır. Bu ölkənin Azərbaycandakı səfiri XİN-ə çağırılmalı və ona etiraz bildirilməlidir. Bundan savayı, Slovakiyadakı səfirliyimiz bu məsələ ilə məşğul olmalıdır" - deputat deyib.

Onun dediklərinə görə, Slovakiyanın Azərbaycan üçün əhəmiyyətli məsələdə bu cür mövqe sərgiləməsi ciddi məsələdir və bu, XİN və Milli Məclis tərəfindən araşdırılmalıdır.



# Tramp və Klinton prezident seçkilərinin favoritidir

**Amerika mətbuatının verdiyi xəbərə görə, ABŞ prezidentliyi uğrunda yarışan 15 namizəd arasında Donald Tramp və Hillari Klinton liderlik edir.**

Seçkilərdən öncə dəqiq sorğuları ilə tanınan "The Des Moines Register" nəşrinə istinadən Virtualaz.org saytı xəbər verir ki, bu gün praymerizin başlayacağı Ayova ştatında seçicilərin 45%-i demokratların arasından namizəd Hillari Klintona səs verməyə hazırdır. Keçmiş prezident Bill Klintonun həyat yoldaşından azca fərqlə geridə qalan demokrat Berni Sandersi 42% seçici dəstəkləyir. Demokrat partiyasının namizədləri arasında fərqin çox azalması diqqət çəkir.

Respublikaçılar arasında isə lider Donald Trampdır. Seçicilərdən 28%-i ona səs verməyə hazırdır. 23% səslə Ted Kruz, 15% səslə Marko Rubio Trampı izləyirlər.

Hazırda prezident olmağa namizədlər arasında 12 respublikaçı və 3 demokrat var.

Fevralın 1-də seçkilərin praymeriz dövrü başlayır. Bunların nəticəsində hər bir partiya prezidentliyə namizədini irəli sürəcək. Seçkilər noyabr ayına nəzərdə tutulub.

# Lavrov MDB ölkələrinin səfirləri ilə görüşüb



**Rusiya xarici işlər naziri Sergey Lavrovun adından MDB ölkələrinin Moskvada akkreditə olunmuş səfirləri üçün ənənəvi səhər yeməyi təşkil olunub. Görüşdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da iştirak edib.**

Rusiya XİN-in mətbuat xidmətinin məlumatına görə, görüş zamanı bu ölkənin xarici siyasət idarəsinin rəhbəri MDB formatında inteqrasiya proseslərinin, Birliyin nizamnamə və yerli orqanlarının işinin təkmilləşdirilməsi yolu ilə MDB-nin müasir dünyanın reallıqlarına uyğunlaşdırılmasının vacibliyini vurğulayıb.

S.Lavrov qeyd edib ki, 25 il ərzində MDB dövlətlərarası qarşılıqlı fəaliyyətə dair ən mühüm məsələləri səmərəli şəkildə həll etməyə qadir nüfuzlu beynəlxalq təşkilata çevrilib. Rusiyalı nazir aktual problemlərlə bağlı ölkəsinin prioritetlərini açıqlayıb /Azərtac/.

# Suriya paytaxtındakı üç partlayışda onlarla uşaq ölüb

**Suriyanın paytaxtı Dəməşqdə silsilə terror aktları törədilib. APA-nın məlumatına görə, Dəməşqin cənubunda yerləşən, Səid Zeynəb adlanan şiə məhəlləsində törədilən üç ardıcıl partlayış nəticəsində 59 nəfər ölüb, 128 nəfər yaralanıb. Terrorçular avtomobilə yerləşdirilmiş bombanı məsafədən işə salıblar. Eyni vaxtda isə yaxınlıqdan keçən marşrut avtobusunda terrorçu-kamikadze özünü partladıb.**

Bir neçə saniyə sonra daha bir kamikadze bədəninə bağladığı partlayıcını işə salıb. Birinci və ikinci partlayışlar bazarın yaxınlığında törədilib. İkinci partlayış nəticəsində avtobusda olan və məktəbdən qayıdan çoxlu uşaq həlak olub. Onlarla maşın və mağaza yanıb. Yaxınlıqdakı yaşayış evləri ziddi ziyan görüb. Ölən və yaralananların dəqiq sayı hələlik bilinmir. Xəstəxanalarda onlarla ağır yaralı var.

# Serj Sərkisyan da ABŞ-a rəsmi dəvət aldı

**Ermənistan prezidenti Serj Sərkisyan aprel ayında Vaşinqtonda keçiriləcək Nüvə təhlükəsizliyi üzrə sammitdə iştirak edəcək. Bu barədə Ermənistanın ABŞ-dakı yeni səfiri Qriqor Ovannisyan prezident Barak Obamaya öz etimadnaməsini təqdimetmə mərasimindəki çıxışında deyib.**

Virtualaz.org bildirir ki, məlumatı Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti yayıb.

Buna cavab olaraq Obama "Ermənistanın nüvə silahı ilə mübarizəyə verdiyi töhfələri yüksək qiymətləndirərək" minnətdarlığını bildirib. Prezident həmçinin, səfiri akkreditasiya ilə bağlı təbrik edib və onun təcrübəsinin gələcək Ermənistan-ABŞ dostluq münasibətlərinin dərinləşməsinə yardım edəcəyindən əmin olduğunu bildirib.

Xatırladaq ki, Q.Ovannisyan hazırda Avrasiya İqtisadi Komissiyasının sədri təyin edilən Ermənistanın ABŞ-dakı keçmiş səfiri Tiqran Sarkisyanın yerinə təyin edilib.

# Ölkədə hemofiliyalı xəstələrin sayı artıb

**Azərbaycanda rəsmi statistikaya əsasən hemofiliyalı xəstələrin sayı 1500-ə yaxındır. Hər il 40-60 yeni xəstə qeydiyyata alınır. Bu barədə Nazirlər Kabinetindən Trend-ə verilən məlumatda deyilir.**

Bildirilir ki, hemofiliya xəstəliyi insan qanında bəzi laxtalanma faktorlarının (VIII və IX faktorlar) irsən çatışmazlığı nəticəsində əmələ gəlir. Hemofiliya irsi qan xəstəliyi olaraq ana tərəfindən ötürülür və əsasən oğlan uşaqlarında özünü büruzə verir. Hemofiliyalı xəstələrə mütəmadi olaraq laxtalanma faktorları vurulmadıqda dəfələrlə baş verən qanaxmalar, oynaqlara və yumşaq toxumalara qansızmalar onların uşaq və gənc yaşlarında şikəst olmasına, bəzi hallarda isə ölümünə səbəb olur.

Son illər hemofiliyadan əziyyət çəkən insanların müalicəsi istiqamətində mühüm işlər görülüb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 224 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı"nın həyata keçirilməsi bu xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsinə, onların laxtalanma faktorları ilə təminatının yaxşılaşmasına və hemofiliyanın inhibitor formasının müalicəsinin tətbiqinə imkan verib. Görülən tədbirlər nəticəsində hemofiliyalı xəstələrin normal həyat fəaliyyətinin təmin olunmasına, ömürlərinin uzadılmasına, bu xəstəlikdən əlillik və ölüm hallarının azaldılmasına nail olunub.

Göstərilən Tədbirlər Proqramı çərçivəsində bir neçə hemofiliyalı xəstəyə Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda oynaqların müasir endoprotezlərlə əvəz olunması əməliyyatları aparılıb. İrsi qan xəstəliklərindən, o cümlədən hemofiliyadan əziyyət çəkən xəstələrə tibbi yardımın yaxınlaşdırılması məqsədilə rayonlarda hematoloji kabinetlər təşkil olunub.

Hemofiliyalı xəstələrin qeydiyyatını aparmaq, onların məlumat bazasını yaratmaq məqsədi ilə xəstələrin registri tərtib olunub ki, bu da dərman preparatlarının istifadəsinə nəzarətin həyata keçirilməsində və xəstələrə göstərilən tibbi yardımın qiymətləndirilməsində mühüm rol oynayır. Eyni zamanda hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın daha da təkmilləşdirilməsi, faktor preparatları ilə müalicə nəticəsində baş verən ağırlaşmaların aradan qaldırılması, xəstələrə ilkin yardımın yerlərdə göstərilməsinin təşkili, kiçik yaşlı uşaqlarda birincili profilaktikanın təkmilləşdirilməsi, artropatiyaların cərrahi müalicə üsullarının tətbiqi istiqamətində tədbirlərin davam etdirilməsinə ehtiyac var.

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016

**Yanvarın 31-i demokratik cümhuriyyətimizin banisi Məmməd Əmin Rəsulzadənin doğum günü idi. Hər il 31 yanvarda olduğu kimi, dünən də ulu öndər Bakının Novxanı qəsəbəsində yerləşən abidəsi qarşısında anılıb. Bu münasibətlə onun Bakının Novxanı qəsəbəsindəki abidəsi yad edilib.**



# Böyük öndər M.Ə.Rəsulzadə heykəli önündə anıldı

## Cümhuriyyətin və istiqlalımızın qurucusunun xatirəsi 132-ci doğum günündə Novxanıda yad edildi...

Musavat.com xəbər verir ki, kənd sakinləri səhər saatlarından abidənin yerləşdiyi kiçik parka gələrək M.Ə.Rəsulzadəni anıblar. Səhər saatlarından Müsavat, AXCP, KXCP, Bozqurd və digər partiyalar Rəsulzadənin abidəsi yerləşdiyi parka yürüş ediblər.

İlk olaraq abidənin önündə çıxış edən KXCP sədri Mirmahmud Mirəlioğlu həmin günün dövlətimizi quranların bayramı olduğunu deyib: "Dövlətimizi bərpa edənlərin bayramıdır. Ar olsun o kəslərə ki, bu bayrağın altında and içirlər, bayraq meydanı düzəldirlər, amma orada qorxularından "Bir kərə yüksələn bayraq bir daha enməz" sözlərini yazmağa qorxurlar. Bu bayrağı qaldıranların ruhları o zaman şad olacaq ki, o sözlərin ölkədə hər yanda yazıldığını görəcəyik. Bu gün bu bayrağı gəzdirənlərin, bu bayrağın kölgəsində yatanların bayramıdır. Əsl bayram bu gündür - Rəsulzadənin doğum günündə. Bayramınız mübarək olsun!".

Müsavat başqanı Arif Hacılı qeyd edib ki, Məmməd Əmin Rəsulzadənin ideyaları yerinə yetəcək, gerçək olacaq: "Üçüncü cümhuriyyətimizi quracağımız gün heç də uzaqda deyil".

Tarixçi Nəsiman Yaqublu qeyd edib ki, Rəsulzadə o şərəfli həyatı yaşamış birisidir ki, özündən sonra qoyduğu irs məslək yoludur və biz bu yolu dönmədən getməkdəyik: "Rəsulzadə yalnız Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan şəxsiyyət olmayıb. Rəsulzadə sovet əsarətində əzilən xalqların lideri kimi təqdim olunur. Qafqaz xalqlarının və sovet xalqlarının, azadlığı uğrunda mübarizə aparan bu xalqların lideridir".

Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər bildirib ki, M.Ə.Rəsulzadənin Azərbaycan tarixində, mədəniyyətində, taleyində həlledici rolu, xidmətləri var: "Azərbaycan tarixində ona bərabər səviyyədə ikinci şəxs tapmaq mümkün deyil. O, tariximizə çox böyük təsir göstərib. O, hər zaman Azərbaycanın istiqlalına, müstəqilliyinə inanıb. Ona görə də bu yol davam edir. Bu yolun qarşısını həmişə kəsməyə çalışıblar. Amma bu yolu davam etdirən böyük insanlar olub. Biz də bu yolu davam etdirəcəyik. Bu yolun qarşısını kəsmək mümkün deyil. İnanıram ki, Azərbaycan xalqı bu yolla getməkdə davam edəcək. Bu şəxsiyyətin ideyaları Azərbaycanda bərqərar edəcəyik. Bu müqəddəs yolda sizlərə uğurlar arzulayıram".






Milli Demokrat (Bozqurd) Partiyasının rəhbəri İsgəndər Həmidov isə qeyd edib ki, qələbəyə doğru gedirik: "İstəsələr də, istəməsələr də, biz qələbə çalacağıq. Biz məqsədimizə doğru gedirik".

M.Ə.Rəsulzadənin nəvəsi Rais Rəsulzadə isə deyib ki, Rəsulzadə və onun silahdaşlarının qurduğu, bu gün mövcud olan Azərbaycanımız iqtisadi və siyasi böhrana düşüb: "Ölkəmizin uğurla öz davasını aparması birlik, stabillik tələb edir. Azərbaycan bu burulğandan çıxmaq üçün öz qüvvəsinə köklənməlidir. Onun Türkiyədən başqa dostu yoxdur. Biz partiyasından, siyasi mövqeyindən asılı olmayaraq hamımız bir məqsədə yönəlməliyik. Azərbaycanın müstəqilliyini göz bəbəyi kimi qorumalıyıq".

Daha sonra ölkə müxalifətinin təmsilçiləri, tədbirin digər iştirakçıları Rəsulzadənin qohumlarının Novxanı qəbiristanlığında olan məzarlarını da ziyarət ediblər.

M.Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub. 1902-ci ildə - 17 yaşında ikən "Müsəlman Gənclik Təşkilatını" yaradıb. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

1908-ci ilin axırında M.Ə.Rəsulzadə çar üsul-idarəsi tərəfindən həbs olunması təhlükəsi ilə əlaqədar olaraq Bakını tərk edərək İrana yollanıb. 1911-ci ildə xaricdə olmasına baxmayaraq, onun bilavasitə rəhbərliyi ilə Müsavat Partiyası yaradılır. 1913-cü ildə Romanovlar süləsinin 300 illiyi ilə əlaqədar ümumi əfv elan olunur və M.Ə.Rəsulzadə vətənə qayıda bilir. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasının sədri olur. 1920-ci ildə Azərbaycan Demokratik Respublikası süquta uğradıqdan sonra Rəsulzadə ölkəni tərk etməyə məcbur olur. Bundan sonrakı fəaliyyətini xarici ölkələrdə mühacir həyatı yaşamaqla davam etdirir. Ankara Universitetinin Tibb Fakültəsinin klinikasında şəkər xəstəliyindən yatan Məhəmməd Əmin 1955-ci il martın 6-da gecə üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan!" deyərək əbədiyyətə qovuşub.

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**







# Meyiti tapılan neftçi Qarabağ veteranı imiş...

## Digər itkin düşənlərin axtarışları davam edir

**Yanvarın 30-da Xəzər dənizindəki "Günəşli" yatağının 10-cu dərin dəniz özülündə baş vermiş qəzada itkin düşən neftçilərdən daha birinin meyiti tapılıb. Cəsəd Türkmənistan sektorunda aşkar olunub.**



SOCAR-ın mətbuat xidmətinin yaydığı məlumata görə, yanvarın 29-da axşam saatlarında Xəzər dənizinin Türkmənistan sektorunda cəsəd aşkar edilib, bu haqda Azərbaycan tərəfinə diplomatik kanallarla məlumat verilib. Cəsədi tapılmış neftçinin artıq kimliyi məlum olub. Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, bu, "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə taxta bənd işçisi vəzifəsində işləmiş Sahib Güloğlan oğlu Şahmarovun meyitidir. Mərhum neftçinin nəşi Vətənə gətirilib və aidiyyəti üzrə təhvil verilib.

Qeyd edək ki, S.Şahmarov Qarabağ döyüşçüsü olub. 43 yaşlı neftçi Qarabağ müharibəsi başlayanda könüllü cəbhəyə yollanıb. Ağdam, Şuşa, Laçın, Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Qızğın döyüşlərin birində güllə yarası alıb. Ayağını dəlib keçən qəlpə dizində böyük deşik yaradıb. Buna baxmayaraq, qısa müddətli müalicədən sonra yenidən ön cəbhəyə yollanıb. "Döyüşdə göstərdiyi şücaətə görə" müxtəlif mükafatlara layiq görülüb.

Onun 11 yaşlı Məhəmməd adlı oğlu və 10 yaşlı Məsumə adlı qızı var.

Neftçinin cəsədinin tapılmasından sonra digər itkin düşənlərin meyitlərinin tapılmasına olan ümidlər yenidən artıb. Hazırda bu istiqamətdə axtarışlar sürətlə davam edir.

Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı mart ayına qədər digər itkin düşənlərin cəsədlərinin tapılmasına ümidlərin olduğunu bildirdi: "İstilər düşənə qədər ümid var. Cəsədlərin Türkmənistan ərazisində tapılması onu göstərir ki, külək o tərəfə doğru əsdiyindən meyitləri həmin istiqamətə aparıb. Mart ayına kimi tapılan tapılacaq, tapılmayanlar çətin ki, aşkar olunsun. Ondan sonra tanınma halları mümkünsüz olacaq. Dəqiq bilmirəm ki, onların əyinlərində paltarlar olubmu. Paltarlar olsa, onun üstündə işçinin ad-soyadı yazılır. Açığı deyim ki, hazırda baş verən hadisə ilə bağlı ictimai məlumat çox zəifdir. Mətbuat məsələni gündəmə gətirdikdə, yaddaşlara qayıdır. Son iki ayda ölkə başçısının sərəncamı əsasında yaradılan komitə hələ də rəyini açıqlamayıb. Düşünürəm ki, elə də çətin iş deyil. Bu işdə məsuliyyətsiz olanlar vəzifələrindən azad olunmalıdırlar. Mənə hazırda məktublar gəlir. Qeyd olunur ki, ölənlərin deyəsən qanları batacaq. Çünki heç bir şəxs vəzifəsindən azad olunmadı. Küləkli havada həmin yerdə kimlərin işləyəcəyini onlar yaxşı bilirlər. Burada cəzalandırılmalı şəxslərin ad-soyadları çoxdan məlum olmalı idi. Bu halların baş verməməsi, işçilər arasında narazılıq yaradır. Müvafiq qurumlar səylə çalışmalıdırlar. Bu ölkədə ən böyük krizis çatışmayan insan faktorudur. İnsanların işlərini qiymətləndirə bilmirlər".

M.Qəhrəmanlı aparılan axtarışlardan razı qalmadığını da qeyd etdi: "Açığı axtarışlarda səy göstərildiyini görə bilmirəm. Bu işlə məşğul olanların fəaliyyətlərini yüksək qiymətləndirmirəm. İctimaiyyətə məlumat verməkdən qaçırlar. Bütün bunlar şəxsi fikirlərimdir".

Təşkilat sədri bu gün saat 11:30-da Beynəlxalq Mətbuat Mərkəzində keçirəcəkləri mətbuat konfransından da söz açdı: "Təşkilatımız insan hüquqlarını müdafiə edən qurumdur. Neft gəlirlərinə nəzarətin gücləndirilməsi ilə bağlı fəaliyyət göstərən təşkilatıq. Bu konfransda iki hesabat açıqlayacağıq. Gördüyümüz işlər barədə cəmiyyətə məlumat verəcəyik. İkinci hesabatımız itkin neftçilərlə bağlı olacaq. Ölənlərlə bağlı narahatçılığımızı bildirəcəyik. Baş verənlərdən sonra gəldiyimiz nəticə ilə əlaqədar fikirlərimizi açıqlayacağıq. Bu bir qiymətləndirmə olacaq. Əsasən, faktlara əsaslanmışıq".

Xatırladaq ki, "Günəşli" yatağındakı qəza ötən il dekabrın 4-də baş vermişdi. Platformada olan 63 neftçidən 32-nin həyatı xilas edilsə də, digərlərinin xilas etmək mümkün olmamışdı. Qəza ilə bağlı "Neft Daşları"nda itkin düşən 3 neftçinin də cəsədlərinin axtarışları davam edir. Hazırda ümumilikdə, 21 neftçi itkin sayılır.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016

# Ölkəmizə pənah gətirən erməni ailəsindən xəbər var...

## Novella Cəfəroğlu: "Azərbaycanda yaşamalarından çox razıdırlar..."



**Ötən il sentyabrın 17-də Azərbaycana pənah gətirən Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vaan Martirosyan son aylarda mətbuatın gündəmindən düşüb. Hazırda erməni ailəsinin harada yaşaması, işlə təmin olunub-olunmamaları məlum deyil.**

Erməni ailəsinin xahişi ilə onların ölkəmizə gəlməsində böyük rol oynayan hüquq müdafiəçisi Novella Cəfəroğlu onlarla daim maraqlandıqlarını bildirdi: "Üzümüzə gələn həftə həmin erməni ailəsi ilə daha ciddi maraqlanacağıq. Ondan sonra mətbuata bu barədə geniş açıqlama verəcəm. Onlar daim diqqətimizdədir. Əlaqələrimiz var. Həmkarlarım erməni ailəsi ilə tez-tez görüşürlər. Ümumi vəziyyətləri normaldır. Hazırda yaxşı yerdə yaşayırlar. Erməni ailəsinə ölkəmizdə vətəndaşlıq verilib-verilməməsini bu həftə açıqlayacağıq. Onu deyim ki, Azərbaycanda yaşamalarından çox razıdırlar".

Xatırladaq ki, erməni ailəsi ötən il sentyabrın 17-də düşmən ölkədəki zülmlərdən canlarını qurtararaq, Azərbaycana qaçmışdılar. Ölkəmizdə yüksək səviyyədə qarşılanan Vaan Martirosyan və ailəsinin aqibətinin necə olacağı hələ də məlum deyil. Erməni ailəsi qanunla ya üçüncü ölkəyə təhvil verilməli, ya da Azərbaycan vətəndaşlığı verilməlidir.

❑ **Cavanşir ABBASLI**

# Təhsil haqqını küçədə gitara çalmaqla ödəyən tələbə

## "Pul qazanmaq üçün..."



**Paytaxtın müxtəlif yerlərində - parklarda, dəniz kənarında, insanların axın etdiyi məkanlarda gənc gitara ifaçılarına rast gəlmək mümkündür. Xarici ölkələrdə ən populyar və gəlir gətirən sənət olan küçə musiqisi Azərbaycanda o qədər də qazanclı sahə sayılmır. Elə küçələrdə çalıb-oxuyan gənc gitaraçılar da çox zaman bu işi qazanc üçün yox, sənət və zövq üçün edirlər.**

Lakin yeni iqtisadi vəziyyət, insanların gəlirlərinin azalması Azərbaycanda da küçə musiqisini aktuallaşdırıb. Artıq gənclər bu peşəyə cüzi gəlir gətirsə belə, qazanc mənbəyi kimi baxırlar.

"Tarqovı"da, insanların ən çox istifadə etdiyi piyada keçidində bir kənarda dayanıb, gitara çalıb, mahnı oxuyan iki gənclə etdiyimiz söhbətdən də belə məlum oldu ki, onları buraya çıxaran sənət eşqi yox, maddi çətinliklər olub.

Qəhrəmanımız Fərid şəhərin mərkəzi küçələrində gitarada ifa etməklə gündəlik çörək pulunu qazanır. İnsanların intensiv hərəkət etdiyi piyada keçidlərində canlı ifası ilə ətrafdakıların diqqətini cəlb edir. Beləcə həm sənətini yaşadır, həm də özünün maddi tələbatını ödəyir.

Tələbə olan Fərid dərsdən sonra - günorta saatlarında mərkəzi küçələrə çıxır və axşam saatlarına kimi gitarada ifa edir. Gitarasının çantasını isə qarşısına qoyur ki, gəlib, keçənlərdən onun ifasını bəyənənlər, insafa gələnlər bu çantanın içinə pul qoysunlar. Biz Fəridlə söhbət etdiyimiz zaman çantanın içində cəmisi 1 manat 20 qəpik var idi.

Fərid bütün bunları ehtiyacı üçün etdiyini deyir: "Liseydə təhsil alıram. Dəfələrlə bir neçə yerə işlə bağlı müraciət etdim. Lakin gündüz dərsdə olduğum üçü mənə görə iş tapılmadı. Maddi vəziyyətimiz yaxşı olmadığından, valideynlərimdən də pul istəyə bilmirəm. Ürəyim istədiyini ala, məktəb xərclərini ödəyə bilmirəm. Bu səbəbdən də dostlarımla birgə şəhərdə gitara çalıb, canlı ifalar edərək, pul qazanırıq. Həvəskar olsam da, bu qazancıma mane olmur. Onlarla mahnım var. Gitara çalmaqla yanaşı, özüm də mahnı oxuyuram. Bu isə ətrafdakıların diqqətini çəkmək üçün yaxşı metoddur. Artıq 2 ildir ki, həvəskar olaraq, bu işlə məşğulam. Gündəlik 15-20 manat pul qazanıram. Ən azından tələbə olduğum üçün ehtiyaclarımı ödəyə bilirəm. Camaatın küçə sənətinə marağı böyükdür. Lakin son vaxtlar camaat musiqiyə biganə yanaşır, bəxşiş verənlərin də sayı azalıb. Yəqin ki, bu da insanların maddi durumu ilə əlaqədardır. Bahalaşmadan sonra gündəlik qazancım 5 manatdan artıq olmur".

❑ **Məğrur MƏRD**
**Foto müəllifindir**

# Bu gün parlamentdə hökumət məhşər ayağına çəkilə bilər

**Fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçiriləcək. Parlamentin mətbuat xidmətindən bildirilib ki, iclasın gündəliyinə 16 məsələ daxil edilib. İclasda öncə Milli Məclisin İntizam və Hesablayıcı komissiyalarının yenidən təşkil edilməsi, komitələrin yeni üzvlərinin təsdiqlənməsi, həmçinin parlamentin 2016-cı il yaz sessiyasının qanunvericilik işləri planının təsdiq olunması məsələlərinə baxılacaq.**



Bundan başqa, gündəliyə Azərbaycanın bir neçə ölkələrlə imzaladığı hökumətlərarası sazişlərin təsdiqi ilə bağlı sənədlər də daxil edilib. Gündəlikdə "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlara, Miqrasiya, Cinayət Prosessual və İnzibati Xətalar məcəllələrinə, eləcə də bir sıra qanunlara əlavə və dəyişikliklər edilməsi daxil edilib.

Milli Məclisin 10 komitəsi yenidən formalaşdırılacaq. "Report"un xəbərinə görə, komitələrin yenidən formalaşdırılması parlamentin Daxili Nizamnaməsinə edilən dəyişikliklərlə bağlıdır. Dəyişikliyə əsasən, artıq bir deputat eyni zamanda Milli Məclisin iki komitəsində təmsil oluna biləcək. Əvvəlki qaydalar bir deputatın yalnız bir komitənin üzvü olmasına imkan verirdi. Bundan sonra bir neçə deputat parlamentin iki komitəsində təmsil olunacaq.

Belə ki, Məlahət İbrahimqızı və Tahir Kərimli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Xanlar Fətiyev və Vüsal Hüseynov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Mirzəcan Xəlilov İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Fuad Muradov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Cavanşir Paşazadə Aqrar siyasət komitəsinin, Sevinc Hüseynova və Musa Quliyev Əmək və sosial siyasət komitəsinin üzvü olacaqlar.

Bundan başqa, Ülviyyə Ağayeva, Sona Əliyeva, Elşad Həsənov və Asim Mollazadə Elm və təhsil komitəsinin, Aqil Abbas, Əflatun Amaşov, Novruzəli Aslanov, Cavanşir Feyziyev, Ziyad Səmədzadə və Mixail Zabelin Mədəniyyət komitəsinin, Bəxtiyar Əliyev, Araz Əlizadə, Sahibə Qafarova, Tahir Mirkişili və Elman Nəsirov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Kamilə Əliyeva, İlham Məmmədov və Sədaqət Vəliyev Səhiyyə komitəsinin tərkibinə daxil ediləcək.

Milli Məclisin bəzi deputatlarının son günlər ölkədəki durumla əlaqədar məmurları sərt tənqdi etməsinin fonunda ilk iclasın gərgin keçəcəyi, hökumətə ünvanlı sərt çıxışlarla yadda qalacağı gözlənilir. Məlumata görə, bir sıra deputatlar prezidentin xəbərdarlıqlarından, mesajlarından nəticə çıxartmayan məmurların cəzalandırılmasını da tələb etmək niyyətindədir. Qeyd edək ki, son günlər ərzində deputatlar arasında yaşlı məmurların istefaya göndərilməsini təklif edənlər, həmçinin dövlət telefonuna belə cavab verməyən nazirləri sərt qınayanlar olub.

❑ **Cavid TURAN**

# Müsavatçı gəncin apelyasiya şikayətinə baxılacaq

## Elvin Paşayev Kürdəxanıya köçürülüb; ailəsi onunla görüşə bilmir

**Yanvarın 23-də həbs edilən Müsavat Gənclər Təşkilatının və partiyanın Qubadlı təşkilatının üzvü Elvin Paşayev 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. Müsavatçı gəncin işindən apelyasiya şikayəti verilib. Fevralın 1-də saat 15:00-da Bakı Apelyasiya Məhkəməsində şikayətə baxılacaq.**


Elvin Paşayev

Bu barədə E.Paşayevin vəkili Nemət Kərimli məlumat verdi: "Elvinlə bağlı artıq şikayətimizi vermişik. Hazırda Kürdəxanıda saxlanılır. Məhkəmə zamanı onunla görüşüb, müəyyən məsələləri dəqiqləşdirəcəyik. İndiyə qədər onunla görüşə bilməmişəm. Açığı məhkəmə ilə bağlı heç bir ümidim yoxdur. Bu şəxs müəllim kimi dərsə gedərkən saxlanılıb. Nə qədər avam olasan ki, dərsə gedərkən üstündə 65 qram tiryək aparasan. Tamamilə gülünc ittihamlardır. Belə çıxır ki, "Hədəf" hazırlıq kurslarında tiryək satırlar. O, sifariş əsasında həbs olunub".

Vəkil müsavatçı gəncin həbs səbəbləri ilə bağlı ilkin versiyalarını da açıqladı: "Həbs səbəblərindən biri odur ki, o, Sumqayıt Dövlət Universitetindəki rüşvətlə bağlı bir mətbuat orqanında böyük məqalə ilə çıxış etmişdi. Facebook səhifəsində də ölkədə baş verənlərlə bağlı yazılar yazır, son zamanlar Müsavat Gənclər Təşkilatında da xüsusi fəallıq göstərirdi. Hesab edirəm ki, bu amillər onun həbsinə rəvac verib. Çünki hazırda icra hakimiyyətləri kiminsə önə çıxmasından narahat olur. Kütləvi həbslər aparılır. Elvinin həbsi də bu siyasətin tərkib hissəsidir".

Müsavatçı gəncin xalası oğlu Rəşad Əhmədov son durumla bağlı bunları dedi: "Elvinin Kürdəxanıya köçürüldüyünü təcridxananın daxilindən bizə dedilər. Görüşmək istədik, lakin icazə vermədilər. Elvin savadlı idi. Onun elmi məqalələri çıxırdı. Elmlə yaşayırdı. Məqsədi o idi ki, professor adını alsın. O, siqaret belə çəkmirdi. Narkotik ağır ittihamdır. İnsana qəribə gəlir. Nəslimizə uyğun ittiham deyil. Bəlkə də, qohumlardan başqa birisi həbs edilsəydi, bizə bu qədər qəribə gəlməzdi. Elvinin bütün həyatını araşdıraq. Heç bir mənfi amil tapmaq mümkün deyil".

Qeyd edək ki, Elvin Paşayev "Hədəf" hazırlıq kurslarında müəllim olub. Yanvarın 23-də dərsə gedərkən saxlanılıb və ona qarşı narkotik maddələrinin satışı ittihamı irəli sürülüb. Barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016

# Hakimiyyət komandası "səhra rejimi"nə keçir

## Hökumətdə hamının əvəzinə İlham Əliyev işləyir; indi kadrların irəli çıxması zamanı gəlib; amma onlar bu dövrə öyrəşə bilmirlər; zamanları bitib; yıpranmış, yorulmuş "yas müxalifəti" də illərdir böhran yaşayır və neftin qiyməti 100 dollar olanda vəziyyətləri necə idisə, indi də elədir...

## Prezident komandanı FV-də yoxlayır

**2016-cı ilin ilk ayı arxada qaldı. Azərbaycan bəlkə də son 10 ildə ilk dəfə soyuq qış ayını fəal, gərgin və emosional hadisələrlə yaşadı. Neftin qiymətinin kəskin düşməsi ilə ölkə iqtisadiyyatının "reanimasiyaya" düşməsi, manatın kəskin ucuzlaşmasının əhali arasında doğurduğu şok effektinin bəzi bölgələrdə etiraz aksiyalarına çevrilməsi, hətta müxalifətin müəyyən kəsiminin illərdir davam edən "donunun" da açılması ayın real mənzərəsini ortaya qoyur. Prezident İlham Əliyevin həftəsonu gənc liderlərlə görüşündə 1993-cü il hakimiyyətini yada salması, hakimiyyət televiziyalarının da 2013-cü ildən (son prezident seçkiləri ili) unutduqlları müxalifət liderlərini, nəhayət, yenidən efirdə göstərib tənqid etmələri də Azərbaycanın gərgin bir mərhələyə qədəm qoyduğunu göstərir.**




Bu gərginliyin səbəbi yerli müxalifət deyil, ilk növbədə neftin qiymətinin qalxmasına müxalifət olanlardır. Bizim müxalifətçilər illərdir öz bacarıqsızlıqlarını neft amili ilə ört-basdır edirdilər. "Bakı nefti var deyə, iqtidarı müdafiə edirlər", deyirdilər. "Neft qurtardı!", bunu Azərbaycan rəhbərliyi ən yüksək səviyyədə bəyan edir. "Bəs, neft qurtardısa, hakimiyətin limiti niyə qurtarmadı" sualına hələ opponentlərindən cavab verən yoxdur. Əslində, müxalifətdə heç nə baş verməyib, düşərgənin reaksiyası da, iqtidar televiziyalarının canfəşanlığı da duruma adekvat deyil. Yıpranmış, yorulmuş və "yas müxalifəti"nin özü illərdir böhran yaşayır və neftin qiyməti 100 dollar olanda onların vəziyyəti necə idisə, indi də elədir, hətta neftin qiyməti ilə bərabər onlar da lap dibə düşüblər. Bu duruma iqtidar kimi sevinməyə və ya müxalifətin səmimi tərəfdarı kimi hədsiz kədərlənməyə ehtiyac yoxdur. Hadisələr göstərdi ki, bu müxalifətlə iqtidar olaraq davam etmək mümkünsüzdür, çünki ən azı onların özlərinin də buna nə həvəsi, nə zamanı var. Azərbaycan müxalifətinin gördüyü işi-virtual tənqidi indi sosial şəbəkələrdə istənilən adam edə bilir, hətta bəlkə də onlardan daha kəskin, daha effektli edirlər. Son lokal etiraz aksiyaları onu göstərdi ki, müxalifət də, onun liderləri də narazı xalqın öz içərisindədirlər, onların da adı Əli, İsa, Musadır... Əli və İsanın indi və heç bir əsas olmadan gündəmə gətirilməsinin şüuraltı səbəbini bəlkə də bu adlarda axtarmaq lazım gəlir. Onları yada salırlar ki, yeni əlilər və musalar ortaya çıxarsa, onlara da indiki kimi inanan olmasın.

> **"Prezident ən müxtəlif sahələrlə məşğul olan gəncləri ətrafına toplamaqla yeni dövrə hazır kadrlarının olduğunu göstərdi, onları dəstəklədi, fəaliyyətlərini bəyəndi"**

Hakimiyyətdə də hər şey qaydasında deyil. Güc strukturları istisna olmaqla, hökumətdə hamının əvəzinə prezident İlham Əliyev işləyir. Bizə yaxın və neftin qiyməti ilə bağlı çox çətin vəziyyətdə olan Rusiyada prezident Vladimir Putin də çox fəaldır, işləyir, çalışır, üstəlik dünya ilə savaşır da. Çünki hamının əvəzinə işləmir, onun baş naziri, nazirləri də, qubernatorları da iş başındadırlar. Baş nazir Artur Rasi-Zadənin böhrandan bəri heç səsini eşidən olmayıb, iqtisadi sferanı kurasiya edən məmurlar hadisələrin ardınca sürünürlər, göstəriş gözləyir, prezidentin dediklərini mübtəda ilə xəbərin yerini dəyişərək yenidən təkrar edirlər. Hətta prezident mətbuat katibi əvəzindən "Azərbaycan heç bir maliyə təşkilatından yardım istəməyib" təkzibini də özü verir. Halbuki xarici mətbuatın yazdığına reaksiya vermək birbaşa onun mətbuat katibinin səlahiyyətinə daxildir, onun ən vacib işi elə budur.

İlham Əliyev ay ərzində nazirlər və icra başçıları da daxil olmaqla, 3 geniştərkibli görüş keçirib, bu, üst-üstə ən az 12 saat efir, təmas və cəmiyyətə ötürülən mesajlar deməkdir. Yeni situasiyanı prezidentdən yaxşı bilən də yoxdur. Söhbət təkcə kapitanın gəmidəki səlahiyyətindən və məsuliyyətindən getmir. İş ondadır ki, prezident hamının əvəzindən bu gəmini mümkün təlatümlərdən qorumaq üçün çalışır.

Neft pulları nazirləri o qədər tənbəlləşdirib ki, onları yeni rejimə keçirmək çətinləşib, bunu görməmək mümkün deyil. Hətta müşavirələrdə belə bəziləri yerində qurcalanır; bu yaşda saatlarla bir yerdə oturmaq belə çətindir. Əvvəl hər şeyi neft pulları həll edirdi, kabinetdən göstərişlə problemlər yoluna qoyulurdu, indi isə kadrların irəli çıxması zamanı gəlib, amma onlar bu dövrə öyrəşə bilmirlər. Canları yanmır və ya yaşlı-qoca məsələsi də deyil, canları üçün qorxmurlar da demək olmaz. Sadəcə, hakimiyyətdə onların zamanı bitib, onların hətta bəziləri orta yaş həddində olsalar belə, işləmək üçün qollarını çırmalamırlar. Halbuki hər səhər bir neçə kolometr gəzir, idman edir, yaxşı qidalanırlar.

İqtidar kuluarlarından sızan məlumata görə, indi ən çox müzakirə edilən mövzu da kadr siyasəti ilə bağlıdır. İddia olunur ki, prezidentin 2 fevral gənclər günü ərəfəsinə təsadüf edən görüşü əslində hakim komandaya bir incə mesajdır. Prezident ən müxtəlif sahələrlə məşğul olan gəncləri ətrafına toplamaqla yeni dövrə hazır kadrlarının olduğunu göstərdi, onları dəstəklədi, fəaliyyətlərini bəyəndi.

Buna paralel olaraq daha bir proses başlayıb. Birbaşa prezidentin tapşırığı ilə iqtidar komandası "səhra rejimi" taktikasına keçib. Mənbəmiz deyib ki, prezident istisnasız olaraq bütün komanda üzvlərinə xalqın içinə getməyi tapşırıb. "Xalqın içi" bu vaxtadək icra başçılarının və bələdiyyələrin seçdiyi adamlardan ibarət olurdusa, indi tapşırılıb ki, müxalifətə yaxın adamları da prosesə qoşsunlar, onların da icra başçıları, nazirlər və Prezident Administrasiyasından gələn səlahiyyətli şəxslərlə görüşdə iştirakına əngəl olmasınlar.

Prezidentin tapşırığı ilə komanda Azərbaycanın dörd bir tərəfinə dağılıb. Məsələn, üç müxtəlif istiqamətdə görəvli olan məmurlar - Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev həftəsonu Zaqatalada, baş nazirin müavini Abid Şərifov Şəkidə, Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov Bakıda geniş ictimaiyyətlə görüşüb. Məlumata görə, komandaya dövlət rəhbərliyi adından "heç kim kabinetində rahat oturmayacaq", deyilib. Xüsusilə də icra başçıları. Görünür, məhz bu testdən sonra iqtidar komandasında ciddi dəyişiklik ola bilər.

❑ "Yenì Müsavat"



## Səməd Seyidov AŞ PA-dakı uğursuzluğa görə cəzalandırılıb?

### Nümayəndə heyətinin rəhbərinin vəzifəsindən kənarlaşdırılması xəbəri yayıldı

**Diplomatik mənbələrdən haqqın.az saytına bildirildiyinə görə, Səməd Seyidov AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri vəzifəsindən kənarlaşdırılıb. Məlum olub ki, britaniyalı deputat Robert Volterin "Dağlıq Qarabağda və Azərbaycanın digər işğal olunmuş ərazilərində gərginliyin artması" məruzəsinin müzakirəsinə cəmi bir həftə qalmış Səməd Seyidov AŞPA-ya məktub göndərib.**

Həmin məktubda Azərbaycan torpaqlarının işğalı faktı qeyd olunmayıb və Ermənistanın hərbi təcavüzünün AŞPA tərəfindən qınanmasına çağırış əksini tapmayıb. Məktubun, demək olar ki, bütün məzmunu AŞPA-nın sülhməramlı fəaliyyətinə və bu fəaliyyətin regionda gücləndirilməsinin vacibliyinə həsr olunub.

Robert Volterin məruzəsi üzrə səsvermə zamanı erməni nümayəndə heyəti və lobbisi bu məruzənin əsassız olmasını sübuta yetirmək üçün Səməd Seyidovun məktubundan istifadə ediblər və bu, sənədin qəbul edilməməsinin əsas səbəblərindən biri olub.

Saytın yaydığı xəbərə görə, bundan sonra qərara alınıb ki, Səməd Seyidov AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin rəhbəri vəzifəsindən kənarlaşdırılsın. Onun yerinə isə son seçkilərdə mandat qazanmış deputat Vüsal Hüseynov təyin olunub. 35 yaşlı Vüsal Hüseynov Harvard Universitetinin məzunudur. Müxtəlif dövrlərdə Prezident Administrasiyasında çalışıb və Korrupsiya ilə mübarizə üzrə komissiyanın katibi olub. 2015-ci ildə Ucar rayonundan deputat seçilib.

Bazar günü olduğundan məsələyə Milli Məclisin və XİN-in mətbuat xidmətlərindən münasibət öyrənə bilmədik. Səməd Seyidov isə mobil telefonunu söndürdüyündən onunla əlaqə saxlamaq mümkün olmadı.

Nümayəndə heyətinin üzvü, deputat Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında S.Seyidovun barəsində yayılan xəbərə belə reaksiya verdi: "Səməd Seyidovun orda kifayət qədər nüfuzu və təcrübəsi var. Onun AŞPA-dakı çıxışları, məsələlərə yanaşması kifayət qədər təsiredicidir. Əslində belə bir qərar verilsə, bu, nümayəndə heyətinin xeyrinə olmaz və doğru addım hesab etmərəm. Onun qabiliyyətindən istifadə edilməsi, məncə, dövlətimiz üçün faydalı olar. Çünki onun təcrübəsinə orda böyük ehtiyac var. Səməd müəllim də kifayət qədər Azərbaycanın maraqlarını müdafiə edir. Məncə, belə bir şey olmamalıdır".

F.Mustafa S.Seyidovun qış sessiyasında iştirak etməməsini onun xəstəliyi ilə əlaqələndirdi: "Səməd müəllimin dizində nəsə problem var idi, xaricdə müalicə olunurdu. Onun yerinə Vüsal Hüseynov əvəzedici müavin kimi iştirak etdi. Yəqin səhhəti ilə bağlı özü sessiyada iştirak etməyib. Odur ki, belə bir məsələnin olmasını ehtimal etmirəm".

Deputat həmkarının AŞPA-ya yazdığı məktubun mətnindən xəbərsiz olduğunu, odur ki, mediada yayılan məsələlər barədə bir söz deyə bilməyəcəyini vurğuladı: "Bildiyim odur ki, o, səhhətinə görə sessiyaya qatıla bilməyib". F.Mustafa bildirdi ki, S.Seyidov sessiyada iştirak etmədiyi üçün AŞPA-nın iclasları barədə Milli Məclis qarşısında hesabatı da o yox, iştirakçı deputatlardan biri verəcək: "Vüsal Hüseynov da kifayət qədər savadlı, ağıllı yoldaşdır, normal fəaliyyət göstərir".

Qeyd edək ki, beynəlxalq qurumlardakı nümayəndə heyətləri parlamentin iclaslarında formalaşdırılır. Odur ki, S.Seyidovla bağlı məsələyə də Milli Məclisin 1 fevralda başlayacaq yaz sessiyasının ilk iclasında aydınlıq gətiriləcəyi gözlənilir. Milli Məclisdən aldığımız məlumata görə, əgər format və nümayəndə heyətinin rəhbəri dəyişəcəksə də, bu, parlament iclasında baş verəcək.

Yazı çapa hazırlanarkən Haqqın.az saytına Milli Məclisdəki mənbələrə istinadən yazıya əlavəsini etdi. Bildirilir ki, gələcək sessiyalarda Səməd Seyidov nümayəndə heyətinin rəhbəri kimi fəaliyyətini davam etdirəcək.

❑ Cavìd TURAN



# Əzələsindən silah kimi istifadə edənlər...

**Samir SARI**

**Əsl idmançı başqa şeydir, gücü, qüvvəti öz yerində, gərək hövsələsi, təmkini, dünyagörüşü, adamlığı da olsun, cırtqoz olmasın, qolunun (ya da ayağının) gücündən yalnız son anda, bütün özünüqoruma vasitələri bitəndən, boşboğaz diplomatların təbirincə desək, münaqişənin dinc danışıqlar yoluyla həll edilməsi imkanları tükənəndən sonra istifadə eləsin.**

Bizim kursda elə bir idmançı var idi. O, idmanla həvəskar şəkildə məşğul olmuşdu, rayon birinciliklərində-filanda çıxış etmişdi. Amma zalım balasında olan idmançı vücudu heç Silvester Stallonedə də yox idi. Adam rəsmən kulturist bədəni daşayırdı. Qolları o qədər güclüydü ki, "Jiquli" markalı avtomobilin arxasını qucağına alıb yerində fırladır, bayaq üzü o tərəfə dayanmış maşını üzü bəri qoyurdu. Boyu 1 metr 80 santimetr, çəkisi isə 80 kiloydu, amma çox güclüydü. Bununla belə, ulu təbiət buna o qədər hövsələ, səbr, təmkin vermişdi ki...

Elə olurdu, sözümüz çəpləşirdi. O vaxt mənim çəkim 50 kiloya çatmırdı, arıq uşaq idim, di gəl, nəyə görəsə əsəbiləşəndə beynim çönürdü. Bir dəfə avtobusla Şəkidən praktikadan qayıdarkən yolda bu beyləqanlı kulturistlə sözümüz çəpləşdi. Təqsir ondaydı. Üstünə bağırdım, qolaylandım, təkbətək davaya çağırdım, təmkinini pozmadı, yerindən qımzanmadı. Hərçənd o məni və mənim kimi daha üç nəfəri sərbəstcə çırpa bilərdi. Avtobusdan düşən kimi üzr istədi, hirsim soyumuşdu, barışdıq.

Bir neçə dəfə başqa situasiyalarda gördüm ki, bu boyda fiziki gücün yiyəsi heç vaxt ondan istifadə etmir, etmək istəmir. Özü də qorxaq-filan deyildi. Güclüydü də, cəsarətliydi də. Bir dəfə yaz vaxtı ona sataşan və döymək istəyən üç nəfərə bir neçə dəfə "ayə, yeriyin gedin vayna" deyəndən sonra görmüşdü ki, başqa variant yoxdur, üçünü də ictimai yerdə şalmışdı şillə-şapalağın altına. Bu, onun qarışdığı ilk və son dava oldu, bir daha heç vaxt heç kimlə dalaşmadı. Əsl idmançıydı. İndi ağsaqqallaşmış olar.

Ona görə də eşidəndə, oxuyanda ki, bir idmançı özündən zəifləri döyüb, filan yerdə dava salıb, bilirəm ki, o adam əsl idmançı deyil. Əsl idmançı öz əzələsindən hücum üçün istifadə etməz. İnkişaf etmiş əzələlər yalnız müdafiə silahıdır.

Yoxsa idmançı gedib barda bir qıza intim əlaqə təklif edirsə, rədd cavabı aldığı təqdirdə, özündən iki dəfə xırda, beş dəfə zərif, on dəfə zəif qadını əzişdirirsə, o, sadəcə, əzələlərini şişirdərək silaha çevirmiş kriminal ünsürdür və o əzələsindən bıçaq, tapança kimi yararlanaraq insanlara problem yaradır, zülm edir.

Dünən idman yarışı zamanı çəkilib yayılmış videodan göründüyü kimi, bir idmançının rəqibini qaldırıb rinqdən kənara atmasının özü də idman hərəkəti deyil və əsl idmançıya yaraşmaz. Bir mübarizə rinqdən, tatamidən kənara çıxdısa, deməli, o artıq yarışma deyil, adi davadır. Göründüyü kimi, az sonra həmin davaya başqaları da qarışır. Döyüş rinqdə olanda heç kəs qarışa bilməzdi, rinqdən kənara çıxıbsa, artıq ona qarışmağa hamının haqqı var.

Müxalifətin "20 Yanvar"-"Qələbə" meydanı arasında yürüş etdiyi, mitinq keçirdiyi illər idi. Bir dəfə zənd elədim ki, səkiylə bir dəstə, təxminən 70-80 nəfər gənc idmançı da hərəkət edir və mitinq keçirənlərə qanlı-qanlı baxırlar, sanki, bu saat hücum əmri verilsə, tökülüşüb camaatı döyəcəklər. Onları jurnalist həmkarlarıma göstərdim, bəzilərini tanıyanlar oldu, dedilər ki, bu uşaqlar əlbəyaxa döyüşlər üzrə federasiyaların uşaqlarıdır, bunları bura hökumət səfərbər edib ki, nə olar, nə olmaz.

Əlbəttə ki, onları lazım gələrsə, camaatı döyməyə gətirmişdilər. Gənclər də atıla-atıla, vacib missiya yerinə yetirəcəkmiş kimi qürur duya-duya gəlmişdilər və əyinlərindəki idman kostyumlarıyla, idmançı olduqlarını xalqa nümayiş etdirə-etdirə, gər-gər, təşər-təşər səkiylə addımlayırdılar. Yaxşı ki, lazım gəlmədi, yoxsa, vallahi, beynəlxalq yarışlarda məğlub olduqları rəqiblərinin, türkün sözü, hıncını qalstuklu müxalifətçilərdən çıxacaqdılar.

Bəs o idmançılar sonradan parladılarmı, uğur qazandılarmı? Yox. Parlamadılar. Hərçənd o gün birinə rast olmuşam, təmirxanada polirovkayla məşğuldur, avtomobil parıldadır.

# Kredit reytinqi aşağı salınan Azərbaycanı çətinliklər gözləyir, amma...

## Ekspert: "Ehtiyac varsa, prosesi qürur məsələsinə çevirmək yanlış olar..."

**Azərbaycanın hazırkı iqtisadi vəziyyətə görə Dünya Bankı (DB) və Beynəlxalq Valyuta Fondundan (BVF) 4 milyard ABŞ dolları həcmində kredit alacağı ilə bağlı ictimaiyyətdə məlumatlar dolaşsa da, ölkə başçısı belə bir məsələnin gündəmdə olmadığını bildirdi. Eyni zamanda, DB-nin Azərbaycanla bağlı yaydığı bəyanatda qeyd olunur ki, onlar ölkəmizdə keçiriləcək islahatlara dəstək verməyə hazırdırlar.**

Bəs təcrübə nə deyir, DB-nin, BVF-nin borc verdiyi ölkələr iqtisadi böhrandan çıxa bilirlərmi?

Öncəliklə qeyd edək ki, Dünya Bankı Qrupu və ya sadəcə, Dünya Bankı bir neçə bir-birilə sıx əlaqəli maliyyə institutlarından ibarət çoxsahəli kredit təşkilatıdır. Əsas məqsədləri isə inkişaf etmiş ölkələrin maliyyə yardımı əsasında inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin qaldırılmasıdır. Qurum fəaliyyətə 25 iyun 1946-cı ildə başlayıb. İlk krediti isə 9 may 1945-ci ildə 250 milyon ABŞ dolları həcmində olmaqla, İkinci Dünya müharibəsi nəticəsində dağılmış iqtisadiyyatını yenidən qurması üçün Fransaya verib.

DB-nin nizamnaməsinə görə, strateji qərarların verilməsi üçün səhmdarların səsinin ən azı 85%-ni toplamaq lazımdır. Onu da qeyd edək ki, 2015-ci ilin məlumatına görə, bu ilə qədər DB tərəfindən Azərbaycana 51 layihə çərçivəsində 3,6 mlrd. dollar kredit ayrılıb.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadi ekspert Rəşad Həsənov bildirdi ki, dünya ölkələrinin və eləcə də Azərbaycanın bu qurumdan borc alması əslində normal



Rəşad Həsənov

hadisədir: "DB və BVF-nin əslində funksiyaları da elə bundan ibarətdir. Hər iki qurum hansısa ölkələrə vəsaitlər təqdim edərkən paralel olaraq çatışmazlıqların araşdırılması, problemlərin üzə çıxarılması və islahatların aparılması kimi bir paketlə də çıxış edir. Bu isə onu göstərir ki, DB-nin fəaliyyətləri elə islahatlarla müşahidə olunur. İndiyə qədər demək olar ki, yüzlərlə ölkə DB-yə müəyyən böhranlar dövründə müraciətlər edib. Onlar üçün də heç bir ciddi problem yaranmayıb. Misal üçün, bu qurumlar Türkiyəni 1980-90-cı illərdə çox ciddi şəkildə müdafiə ediblər. Bu ölkədə BVF-nin böyük vəsaitləri olub. Müəyyən müddət ərzində tənzimləyici rol oynayırlar, sonradan isə bu vəsaitlər geri qaytarılır".

Bir zamanlar DB Azərbaycanı da onunla əməkdaşlıq edərək, kasıb ölkələrə yardım etməyə çağırırdı. R.Həsənov hesab edir ki, bu tendensiya iqtisadiyyatda normaldır: "Azərbaycan kimi ölkələrdə iqtisadi vəziyyətin müəyyən dövr ərzində dəyişməsi qeyri-adi bir məsələ deyil. Burada, sadəcə olaraq, resursdan asılılıq var. Qiymətlər dəyişdikcə ölkədəki iqtisadi vəziyyət də dəyişir. Bundan öncəki dövrdə Azərbaycanın borc vermə imkanı var idi. Hətta deyərdim ki, indi də Azərbaycan Neft Fondunun vəsaitlərini hansısa formada bir çox ölkələrdə yerləşdirərək investisiya alətlərindən istifadə edir. Ancaq məsələ hazırda fərqlidir. Əgər ehtiyac varsa, prosesi qürur məsələsinə çevirmək yanlış olar. Əksinə, daha operativ şəkildə, mövcud situasiyaya reaksiya verərək islahatlar aparıb, böhranı tez bir zamanda müsbətə doğru dəyişməyə ehtiyac var".

Bütün bu proseslərin fonunda Azərbaycanın kredit reytinqi də "spekulyativ" səviyyəyə endirilib. Ekspert hesab edir ki, belə bir vəziyyətdə borclanmada müəyyən maneə yaransa da, əslində, bu hal da gözlənilən idi: "Kredit reytinqinin aşağı salınması gözlənilən idi. Etiraf edilməsə də, mövcud situasiya kənardan açıq şəkildə görünür. Bəzi dövlət qurumları bunu qeyri-adi hal kimi qəbul edirlər. Hesab edirəm ki, digər agentliklər də bundan sonra Azərbaycan üçün kredit reytinqini aşağı salacaq. Bu, təbii prosesdir və heç bir ikili standartdan söhbət gedə bilməz. Risklər artdıqca kredit reytinqi aşağı düşməlidir. Bunun Azərbaycan üçün mənfi tərəfi ondan ibarətdir ki, bundan sonrakı borclanmalarda daha çox tələblərlə üzləşəcəyik. Eyni zamanda, müddət məsələsində də ölkəmiz çətinliklərlə üzləşə bilər və daha bahalı faizlərlə borclanacağıq. Bu vəziyyət Dünya Bankının Azərbaycana kredit verməsinə elə də ciddi təsir etməyəcək. Qurum bununla bağlı öz müsbət bəyanatını da açıqlayıb. Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun əsas qayəsi o deyil ki, onlar borcu verib, sonra da faizini alsınlar. Bu qurumların işi həm də tövsiyə xarakterli struktur tənzimləmələrinin aparılmasıdır".

❑ **Əli RAİS**

# Etirazlar səngidi, yoxsa fırtına öncəsi sükut?

## Mehman Əliyev: "Hökumət ciddi islahatlar aparmasa və vəziyyət yaxşıya doğru dəyişməsə..."

## Fazil Mustafa: "İqtidar nəticə çıxartmalı, əhalinin problemlərini küçəyə daşımadan həll etməyə çalışmalıdır"

**21 dekabr devalvasiyasının Azərbaycan iqtisadiyyatına vurduğu zərbənin təsirləri hələ də aradan qalxmayıb. Bazarlarda bahalaşma davam edir, insanların iş yerlərindən ixtisar edilməsi prosesi sürətlənib, problemli kreditlər banklarla vətəndaşları üz-üzə qoyub. İnsanların gündəlik istifadə etdiyi ən strateji məhsulların qiyməti iki dəfədən artıq qalxıb.**



Lakin ilin ilk ayında bölgələrdə baş qaldıran etirazlar artıq təkrarlanmır. Bəs görəsən vəziyyətin dəyişmədiyi halda cəmiyyətin bu cür sakitliyi nədir: etirazlar səngidi, yoxsa bu, bir fırtına öncəsi səssizlikdir?

Siyasi şərhçi, "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əgər ciddi islahatlar aparılmaqla əhalinin həyat şəraiti düzəlməsə, etirazlar yenidən başlaya bilər: "Mən deməzdim ki, bu etirazlar səngiyib. Əgər hökumət ciddi islahatlar aparmasa və vəziyyət yaxşıya doğru dəyişməsə, növbəti etiraz dalğası başlayacaq. Bu qaçılmazdır. Vəziyyətin daha da pisləşməsi, verilən vədlərin həyata keçirilməməsi, deyilən sözlərin reallığa adekvat olmaması bu etirazların başlamasını təhrikləyə bilər. Bunu hökumətdə də bilir və nəzərə alırlar. Hökumət böhrandan çıxış yolu üzərində işləyir. Ancaq bu, aparılan islahatların nə qədər dərin və geniş olmasından asılı olacaq. Lakin hazırda vəziyyət pisləşməyə doğru gedir. Heç kim gözləmirdi, heç mən də gözləmirdim ki, yanvarın ortalarında bölgələrdə etiraz aksiyaları ola bilər. Ancaq bu baş verdi və hökumət üçün soyuq duş oldu. Ona görə də, ayın 10-dan sonra 18-də yenidən iclas keçirildi, artıq islahatlar üçün konkret bəndlər verildi".

Ekspertin sözlərinə görə, baş verə biləcək etirazların qarşısını almaq üçün real addımlar atmaq, monopoliyanı aradan qaldırmaq, azad iqtisadiyyat yaratmaq və insanların işləməsi üçün şərait yaratmaq lazımdır: "Ən əsas məqam odur ki, siyasi hakimiyyətdən şəxsi maraqlar üçün istifadə olunmamalıdır. Burada çox amillər var. Misal üçün, yaxın Gürcüstanı göstərmək olar, o qədər islahatlar aparılsa, kifayətdir. Əgər insanlara normal yaşamaq, qidalanmaq, ailələrini dolandırmaq üçün şərait yaradılmasa, onların küçələrə çıxıb etiraz etməkdən başqa çıxış yolu qalmır".

Milli Məclisin deputatı Fazil Mustafa isə açıqlamasında qeyd etdi ki, bütün bu etirazlar devalvasiyanın insanlar üzərində yaratdığı şokun təsiri ilə baş verib: "Bu əhalinin öz gələcəyi ilə bağlı ümidsizliyindən və narahatlığından irəli gəlirdi, sistemli xarakter daşıyan bir hal deyildi. Bütövlükdə Azərbaycan cəmiyyəti etirazlar və gərginlik yaratmaq yolu ilə problemlərin həll olunmasını gözləmir. Hazırda qarışıq bir dövrdə yaşayırıq. Çevrəmizdəki problemlərin Azərbaycana sıçraması ehtimalı var. İnsanlar daha çox ölkənin təhlükəsizlik maraqlarından çıxış edirlər. O baxımdan bunun bir siyasi aksiyaya çevrilməməsi məhz təhlükəsizlik maraqları ilə bağlıdır. Hamı bilir ki, ölkədə xaos olarsa, yoxsul əhalinin problemləri daha da artacaq. Düzdür, bu etirazlar başladı, insanlar işsizliklə, bahalaşma ilə, sosial vəziyyətlə bağlı etirazlarını bildirdilər. Lakin bu problemlər masa arxasında həll olunmalıdır. Hökumət islahatlara getməlidir və çox güman ki, hakimiyyət də etirazlardan dərs çıxartdı. Ən azı bilindi ki, tələtümsüz, müəyyən qarışıqlıq olmadan islahatların aparılması vacibdir".

F. Mustafa onu da qeyd etdi ki, ölkədə xaotik bir durum yaranarsa, hökumət çətin vəziyyətdə qalacaq, əhali də itirəcək və əlavə olunmasın bilməyəcək: "Əksinə, bundan xarici qüvvələr öz istəklərinə uyğun istifadə edəcəklər və Azərbaycanın gələcəyi də təhlükəyə girəcək. Ona görə də bu məsələnin genişlənməməsi ölkənin maraqlarına uyğundur. İqtidar bundan nəticə çıxartmalı və dərs almalı, əhalinin problemlərini küçəyə daşımadan həll etməyə çalışmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

**"Baxış bucağı"**

**Hökumət Evinin qarşısından başlayan, dənizkənarı boyunca davam edən söhbətimizdə bir sıra maraqlı məqamlar da xatırlandı, istiqlalımızın qazanılmasından, indi ralli yarışmasına görə çəpərlənən Azadlıq meydanındakı izdihamlı günlərdən də bəhs etdik. Ancaq bu gün ölkə əhalisini narahat edən çox ciddi məsələlər var deyə, söhbətin bu hissəsini gələcəyə saxladıq. Beləliklə, Milli Məclisin istiqlalçı deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədovla müsahibəni təqdim edirik:**

# "Hökumət 10 il bundan qabaq dərs götürməli idi"

## Vahid Əhmədov: "Bəlkə də Artur müəllim postunu təhvil vermək istəyir, amma icazə vermirlər"

***- Vahid bəy, 10 min dollarıdək bank kreditlərinin köhnə məzənnə ilə hesablanmasını təklif etmişdiniz. Maliyyə naziri Samir Şərifovunsa son sözü belə oldu ki, bank xeyriyyə cəmiyyəti deyil. Bu arqumentlə razılaşırsınız?***

- Ümumiyyətlə, bu açıqlamalar bir-birini təkzib edir. Qeyd edir ki, banklar xeyriyyə cəmiyyəti deyil. Amma digər tərəfdən də deyir ki, banklar vaxtilə 30-35 faizlik kredit verməklə çox böyük gəlirlər əldə edib və bankla müştəri arasında bu məsələlər öz həllini tapsın. Ümumi götürəndə söhbət ondan getmir ki, cənab maliyyə naziri nə deyir, bu, onun fikridir. Mənim də millət vəkili olaraq şəxsi fikirlərim, təkliflərim var. Hansı ki, bunlar müəyyən qədər razılaşdırılmışdı.

***- Mərkəzi Bankla?***

- Bəli. Özü də bu təklif bizdən gəlməmişdi, Mərkəzi Bankdan gəlmişdi, biz də dəstəkləmişdik. Yəni 10 min dollara qədər olan kreditlər köhnə məzənnə ilə ödəniləcək. Mərkəzi Bankın ehtiyatı da var, manatın devalvasiyasından müəyyən qədər vəsait əldə edib.

***- Nə qədərdir bu ehtiyatın həcmi?***

- 7-8 milyarda yaxın vəsait var. İndi bundan 250 - 300 milyon manat ayırıb vermək olar. Deyirlər yox, biz dollar kreditlərini nəzərə alsaq, digər krediti olan insanlar deyəcəklər bizə də güzəştə gedin. Amma bunlar fərqli adamlardır. 10 min dollara qədər olan kreditlər faktiki istehlak kreditləridir, hansı ki, çox yüksək faizlərlə verilib və insanların gündəlik tələbatının ödənilməsi üçün istifadə olunub.

***- Elə isə Samir Şərifovla Elman Rüstəmov arasında bu məsələ ilə bağlı fikirayrılığının yaranmasına səbəb nədir?***

- Elman Rüstəmov da deyir ki, bu kreditlərin köhnə məzənnə ilə ödənilməməsi məsələsi ümumi, razılaşdırılmış bir fikirdir. Amma mən öz fikrimdə qalıram və hesab edirəm ki, dövlət başçısı, cənab İlham Əliyev bütün çıxışlarında və gördüyü işlərdə əhalinin sosial müdafiəsinə çox böyük diqqət yetirir. Bu məsələ də birbaşa sosial müdafiə məsələsi olduğu üçün yəqin ki, prezident öz münasibətini bildirəcək. Son söz prezidentindir, humanist bir insandır, vəziyyəti çox yaxşı bilir. Mən fikir verirəm, son vaxtlar iqtisadi islahatların bütün koordinasiyasını cənab prezident aparır.

***- Bu, düzgündürmü? Bəs, hökumət, Nazirlər Kabineti?***

- Dünyada neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, milli valyutanın devalvasiyası ilə əlaqədar olaraq prezidentin bu işə qarışmasını normal hesab edirəm. Əlbəttə, normal hökumət olarsa, çevik bir hökumət fəaliyyət göstərərsə, prezident yalnız xüsusi strateji əhəmiyyət kəsb edən məsələlərdə müdaxilə edərdi. Amma görünür ki, indiki şərait prezidentin müdaxiləsini zəruri edir.

***- Onda belə deyək, hökumət niyə xalqa, lap elə dövlət başçısına kömək etmir, önə çıxmır?***

- "Kömək etmir" demək olmaz, hökumət az-çox çalışır. Önə çıxmır deyəndə, cənab prezident öz sinəsini verib qabağa, bu işləri aparır və öhdəsindən də çox məharətlə gəlir. Xüsusilə ilk devalvasiyadan sonra mən baxmışam, verilən qərarlar, fərmanlar, parlamentin fövqəladə iclasında 7 qanuna dəyişiklik edilməsi, 1 əlavə qanunun qəbulu cənab prezidentin təşəbbüsü nəticəsində olub. Əlbəttə, hökumət üzvləri də müəyyən təkliflərlə çıxış edib. Belə məqamda əlbəttə müəyyən koordinasiyaya ehtiyac var. Təbii ki, bu koordinasiyanı hökumət aparmalıdır. Yalnız çətin anlarda dövlət başçısı müdaxilə etməlidir. Prezidentin onsuz da işləri həddən artıqdır, onun qarşısında digər ciddi məsələlər, xarici siyasət məsələləri, Dağlıq Qarabağ problemi var.

***- Belə hesab olunur ki, hökumət Azərbaycanda ciddi iqtisadi böhranın olmayacağı barədə ilbəil verdiyi hesabatlarla dövlət başçısını da inandırıb. Əgər vaxtında addımlar atılsaydı, vəziyyət başqa cür olardı. Elə isə bugünkü durumda hökumət öz günahını yumaq üçün nə etməlidir?***

- Mən və həmkarlarım dəfələrlə Milli Məclisdə demişik ki, ölkədə postneft dövrünə hazırlaşmaq lazımdır. Yəni sabah neftin qiyməti, hasilatı aşağı düşəndə dövlətin büdcəsi, əhalimiz ciddi çətinliklərlə üz-üzə gəlməsin. Çox təəssüf ki, biz çətinliklərlə üz-üzə gəldik, neftin qiyməti bir il ərzində 4 dəfə aşağı düşdü. Bu, gözlənilən deyildi. Cənab prezidentin dediyi kimi, bu, sırf siyasi məsələdir, nə qədər davam edəcək, heç kəs bilmir. Bu, bizimçün gözlənilməz olsa da, böyük imkanlarımız var idi. Mənə qəribə gəlir, 2004-2006-cı ildə "Regionların iqtisadi inkişafı proqramı" ilə əlaqədar "Gülüstan" sarayında böyük bir yığıncaqda prezident çıxış etdi və hökumətə tövsiyə elədi ki, iki məsələ ilə - ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və qeyri-neft sektorunun inkişafı ilə ciddi məşğul olun. 10 il bundan qabaq Azərbaycan hökuməti özünə dərs götürməli, bu sahələri inkişaf etdirmək üçün addımlar atmalı idi. Müəyyən işlər görüldü, qeyri-neft sektorunda 12 faiz inkişaf oldu, amma bu, ölkəyə yüksək gəlirlər gətirmədi, ixrac yönümlü məhsulları artırmadı. Xaricdən daxil olan valyutada qeyri-neft sektorunun payı həddən artıq azdır, hardasa 6-7 faizdir. Yəni bu məsələlərlə çox ciddi məşğul olmaq lazımdır. Ona görə də cənab prezident məcbur oldu ki, faktiki olaraq bu missiyanı öz üzərinə götürsün.



***- Parlamentin yaz sessiyası başlayır. Siz deyən kimi, çevik, islahatlara hazır bir hökumətin formalaşdırılması barədə məsələ qaldırılacaqmı?***

- İndiki şəraitdən çıxmaq, sosial-iqtisadi problemləri həll etmək üçün, əlbəttə ki, çevik hökumətə ehtiyac var. Düzdür, bəzi kadrlar əvəzlənib, amma bu islahatları tez bir zamanda tamamlamaq lazımdır. Çevik bir hökumət qurmaq lazımdır ki, qanunların qəbulunda, qərarların verilməsində çeviklik hiss olunsun, buna ciddi ehtiyac var.

***- Hətta həmkarınız Hadi Rəcəbli təqaüd yaşı çatanları yola salmağa çağırdı. Deputat Fəzail İbrahimli nazirləri kəskin tənqid etdi, həmçinin digər həmkarınız Zahid Oruc dəfələrlə məmurları sərt tənqidi ilə diqqət çəkib. Bütün bunlar hətta parlamentin hökumətdən narazı olduğu qənaətini yaradır...***

- Çox deyilir ki, pensiya yaşına çatanlar getsin. Amma elə insanlar var ki, pensiya yaşına çatıb, amma dövlətimiz üçün cavanlardan daha çox çalışır. Bütün dövlətlər islahatları aparmaq üçün ekspert dəvət edəndə daha çox təcrübəli şəxsləri, texnokratları dəvət edirlər. Azərbaycanda həm instisional, həm iqtisadi islahatlara gedilməsinə böyük ehtiyac var.

***- Görünən budur ki, hökumət bu gün əhaliyə konkret nəsə təklif etməyə tələsmir, sanki nəyisə gözləyir...***

- İkinci devalvasiyadan sonra İqtisadiyyat Nazirliyi çox ciddi təkliflər irəli sürüb. Mənim şəxsən iqtisadiyyat naziri ilə görüşüm olub, nə işlər görüləcək, onlarla tanışam. Cənab nazir Milli Məclisin fövqəladə iclasında çıxış etdi, dedi ki, biz 1,5 milyard manatlıq 150 layihə həyata keçirtməliyik və bu layihə də bütün rayonları əhatə edəcək, təqribən 20 minə yaxın iş yeri deməkdir. Yəni belə tədbirlər var. Mən Şahin Mustafayevlə görüşəndə də dedim ki, çalışmaq lazımdır bütün rayonları əhatə eləsin və iki ildən sonra deyək ki, Azərbaycanda qeyri-neft sektoru yüksək səviyyədədir, neft oldu-olmadı ixracımız da var, idxalımız da.

***- Bəs, bu işlər indiyə qədər, neft pullarının axdığı dövrdə niyə görülmürdü, kim idi mane olan?***

- İndiyə qədər arxayınçılıq var idi. Arxayın idilər ki, neft elə həmişə olacaq, Azərbaycana pullar gələcək və bunu istədikləri kimi xərcləyəcəklər. Bu gün ən ciddi məsələ qeyri-neft sektorunun - kənd təsərrüfatı, sənaye, turizmin inkişafıdır. Kənd təsərrüfatında imkanlarımız çox böyükdür, işlək əhalinin 38-40 faizi kənd təsərrüfatı ilə məşğuldur. Burada emal sahələri, İmişlidəki kimi, iri fermer təsərrüfatları yaratmaq lazımdır.

**"Arxayın idilər ki, neft elə həmişə olacaq, Azərbaycana pullar gələcək və bunu istədikləri kimi xərcləyəcəklər"**

***- Siz həmişə kəndlilərin Quba almasını sata bilməməsindən şikayətlənmisiniz, hökumətə də sözünüzü demisiniz...***

- İndi də deyirəm. Qubada sovet dövründə 3 konserv zavodu olub. Bu gün onların biri işləyir, digər ikisi alınıb, ağzına qıfıl vurulub, cənab prezident dediyi kimi, qalıb orda. Niyə Özəlləşdirmə Komitəsi, Kərəm Həsənov maraqlanmır ki, nə üçün o zavodlar işləmir, o zavodları alanlar kimdir, kim alıb qapısına qıfıl vurub? Hər dəfə büdcə müzakirələri və hökumətin hesabatında mən və cənab Yevda Abramov bu məsələni qaldırmışıq. Amma məsələ öz həllini tapmayıb. İndi cənab prezident ikinci özəlləşdirməyə gedilməsinə göstəriş verib. Özəlləşdirəndə müəssisənin hesabatını da aparmaq lazımdır ki, necə özəlləşib ki, işləmir?

***- Əkilməyən pay torpaqlarının geri alınması barədə qanuna əlavə edildi. Bəlkə işləməyən müəssisələr də yenidən özəlləşdirməyə açıq elan olunsun?***

- Tamamilə doğrudur. Qubada üç konserv zavodu işləsəydi, heç bir problemimiz olmazdı, özümüzü də təmin edərdik, hətta məhsulumuzu xaricə də çıxara bilərdik. İndi cənab prezident sərəncam və göstərişlərini verdi, görək, onun icrası necə həyata keçiriləcək. İcranın üzərində nəzarət mexanizmi qurulmalıdır ki, məsələlər öz həllini tapsın.

***- Bakı meri Hacıbala Abutalıbov deyir ki, əgər məndən ağıllı kadr olsa, məmnuniyyətlə postu təhvil verməyə hazıram. Doğrudanmı ölkədə bu dərəcədə kadr problemi var?***

- Görürəm ki, Hacıbala Abutalıbov özünü çox ağıllı hesab edir. Həm də elə hesab edir ki, Azərbaycanın iqtisadiyyatını, təsərrüfatını bilən insanlar yoxdur. Elə də başa düşür ki, ömrü boyu Bakının meri olmalıdır və onu kimsə əvəz edə bilməz. Əvəzolunmaz şəxs yoxdur, bunu cənab İlham Əliyev bəzi nazirləri vəzifəsindən götürməklə bir daha sübut etdi. Kimsə düşünməsin ki, nazir təyin edilərsə, ömrü boyu işləyəcək. Elə şey yoxdur. Ona görə də Abutalıbov tamamilə səhv fikirdədir. Vəzifəli şəxsin belə fikir söyləməsi düzgün deyil.

***- Hökumət hər il 2-3 dəfə Milli Məclisə gəlirdi, müzakirələr olurdu, büdcə və ya hesabatlar yüksək səs çoxluğu ilə qəbul edilirdi, məsələ bitirdi. Bu mənada ölkədəki vəziyyətə görə parlamentin məsuliyyəti nə qədərdir?***

- Mən artıq 11-ci ildir İqtisadi siyasət komitəsinin üzvüyəm, həmişə də öz fikirlərimi açıq, demokratik şəkildə bildirmişəm. Hökuməti də, istənilən naziri də tənqid etmişəm. Azərbaycanın müstəqilliyinə səs verən bir adamam, mənim üçün Azərbaycanın müstəqilliyindən önəmli heç nə yoxdur. Heç vaxt qəbul edə bilmərəm ki, müstəqilliyimizə nəsə bir xələl gəlsin. Bu illərdə təkliflərimizin qəbul olunanı da, olunmayanı da olub. Açığı, komitə iclasları həmişə çox gərgin keçir, nəinki plenar iclaslar. Mən, Əli Məsimli, digər həmkarlarımız öz fikrimizi deyirik. Hətta bizə iradlar da tuturlar ki, çox sərt danışırdınız. Sərt danışmırıq, olanı deyirik. Əgər biz gedən prosesdə istədiyimizə nail ola bilməmişiksə, postneft dövrünə yaxşı çıxmamışıqsa, əlbəttə, parlamentin də günahı var. Amma belə bir vaxtda istefa məsələsini qoymaq, mitinqlər təşkil etməyi qəbul etmirəm. İndiki zamanda daha çox birləşmək lazımdır ki, insanlar bir yerdə olsun, bir-birinə kömək etsin. Bu gün hətta hökumətin iqtisadi komandasında da fikir ayrılıqları var. Məsələn, maliyyə naziri bir fikri deyir, Mərkəzi Bank rəhbərliyi isə onunla razılaşmır, başqasını deyir.

***- Artur müəllimsə heç nə demir...***

- Mən Artur Rasi-Zadə ilə bir yerdə işləmişəm, savadlı mühəndis, təvazökar insandır, işini bilən adamdır, ona böyük hörmətim var. Tez-tez telefonla danışıram. Açığını deyim, vəziyyətlə bağlı o da narahatdır.

***- Bəs, postunu təhvil vermək barədə düşünürmü?***

- Cənab prezident məsləhət bilsə, təhvil verəcək, postundan ikiəlli yapışmayıb ki. Bəlkə də Artur müəllim postunu təhvil vermək istəyir, amma icazə vermirlər.

***- Demək olarmı ki, bu gün ölkə çarəsiz duruma düşüb?***

- Yox, belə demək doğru olmaz. 1992-93-cü illərdə, mən baş nazirin 1-ci müavini olanda bizim vəziyyətimiz bundan yüz dəfə ağır idi. Heç taxıl almağa pulumuz yox idi, nə BTC vardı, nə Bakı-Qars dəmir yolu. Amma ona-buna yalvarmaqla taxıl alırdıq. Amma o vəziyyətdən çıxdıq və müstəqilliyimizi itirmədik. İlham Əliyevin atdığı addımlar riskli, ağır da olsa, çox müsbət addımlardır. Amma dediyim kimi, çevik hökumət olmalıdır. Hökumət gecə-gündüz işləməlidir, onunçün şənbə-bazar olmamalıdır...

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016



# Turp da əkməliyik

Zamin HACI
zaminhaci@gmail.com

**Beynəlxalq reytinq agentlikləri Azərbaycanın iqtisadi durumunu mənfi qiymətləndirir, artıq heç kim ölkəmizə kredit vermək istəmir. Deyirlər gedin özünüz öz başınıza çarə qılın. Bu mənada AzərTAc dövlət informasiya agentliyinin hazırladığı "Xərək çörəyi bişirin, devalvasiyadan qurtulun" başlıqlı material çox yerinə düşübdür. İstəyənlər bu iqtisadi reseptlə saytda tanışa ola bilər, əgər ermənilər oğurlamayıbsa hələ orda qalmalıdır. Mən 4-5 gün qabaq oxumuşdum, özümə gələ bilmirdim, az qala kəndə gedib xərək çörəyi bişirirdim.**

Bilməyənlər varsa bilsinlər: xərək çörəyi Azərbaycanın şimal rayonlarında - Xaçmaz, Qusar tərəflərdə bişirilən bir çörək növüdür. Bir az alaçiy bişirilir, klassik təndir çörəyimizdən fərqlidir, Anadolu türklərinin Bakıda açdıqları kafelərdə verilən çörəyə xeyli bənzəri vardır. Uzun sözün qısası, AzərTAc krizisdən çıxmağımız üçün Xaçmazın Çiləgir kəndinə xüsusi müxbir göndərib, müxbir yoldaş orada kənd sakinləri ilə xərək çörəyini bişirmək haqda geniş söhbət aparmışdır. Sitat: "Dörd övlad böyüdüb boya-başa çatdıran Süreyya Mahmudova kolxoz dövründə mühasib, həyat yoldaşı isə anbardar vəzifəsində çalışıb. Bununla belə daim həyətyanı sahələrində tərəvəz məhsulları əkib, mal-qara, toyuq-cücə saxlayıb. O deyir ki, insan işdən qorxmamalıdır. Elə bir iş yoxdur ki, onun öhdəsindən gəlmək mümkün olmasın. Sadəcə həvəs, istək olmalıdır. İndi sakinlərin əksəriyyəti kənd təsərrüfatından uzaq düşüb. Kəndlə şəhərin fərqi qalmayıb. Hər şeyi bazardan alırlar. Hətta adi göyərtini də. Amma bolluq olması üçün torpaqlarımızı əkib becərmək lazımdır. Bizim torpaqlarımız qədər bərəkətli-ruzili yer yoxdur". Sitatın sonu.

Daha sonra müxbir Xaçmazdan Bakıya xəyali səyahət edir. Yazır ki, paytaxtda yaşamaq, qutu binalarda ömür sürmək xəstəlikdir, hər bir insan təbiətin qoynuna, kəndə qayıtmalıdır, yazıçı-deputat, "Çadırda deputat yarana bilməz", "Dolu soğan kisəsi", "Batmanqaşıq" kimi gözəl romanlar müəllifi Aqil Abbasın dediyi kimi, soğan əkməyə getməlidir. Mən də bu ülvi arzulara qoşuluram. Sözgəlişi, Ülvi Quliyev adında bir deputat da var idi, onun axırı necə oldu, xəbəri olan varsa yazsın. Mənə yox, heç mənə lazım da deyil, Oqtay müəllimə yazsın, bəlkə deputatxana müdirinin heç xəbəri yoxdur, bəzi deputatlar sessiyalar arası fasilələrdə itkin düşürlər.

Hesab edirəm dövlət agentliyi çox haqlıdır. Biz özümüz də təbiətdən uzaq düşmüşük. Hamımız Avropa Oyunları, kosmosa "Azərsat" peyki uçurtmaq, Formula-1 yarışında maşın toqquşdurmaq, beynəlxalq multikulturizm tədbirləri kimi işlərə məşğuluq, nə soğan əkən var, nə qoyun qırxan. Dözülməz haldır. Elə rayon prokurorluq orqanları var ki, onların binasında mənasız istintaq hərəkətləri aparmaqdansa istixana açılsa, iki lək xiyar, üç lək pomidor, bir şax lobya, beş cız kələm əkilsə daha bərəkətli olar. Vallah, ciddi sözümdür. Yoxsa indi uca millətdə də qəpik-quruş qalıb, tutub soymaq olmur. Süd verməyən inəyi ətliyə göndərməlisən, biz Hindistanda yaşamırıq, inəklər qocalıb öz əcəliylə ölə bilməz. Ya get toyuq basdır, ya da özün orqanlardan bas bayıra! Bu cür hökmlü olmalıyıq. Yoxsa dövlətçilik dağılar.

Bu mənada, yeri gəlmişkən, keçmiş türmə rəisi, indi dövlətin təhlükəsizliyinə baxan şəxsiyyətin Zaqatala rayon türməsi sakinləri ilə görüşməsi, kəndlərdəki islah-əmək, islat-çırp, ishal-qarınağrısı cəzaçəkmə müəssisələrinə xəbərdarlıq etməsi layiqli addım idi. Türmənin fərqi yoxdur, əsas odur içəridə qiyama yol verilməsin, vaxtında "şmon", bardak və bespredellər, duşnyaklar həyata keçirilsin.

Elə məhkumların başında turp əkilməsi də hardasa kənd təsərrüfatının inkişafına töhfədir. Yoxsa hamı girib qutu-türmələrə, turp əkən yoxdur. Gərək turp əkməyi də Aqil müəllim məsləhət bilsin? Özünüz əkə bilmirsiniz?

# Qafqaz yenidən qarışa bilər - təhlükəli gəlişmə

**Bu günlərdə Gürcüstanın xəbər lentlərində maraqlı bir məlumat keçdi. Xəbərə görə, prezident Georgi Marqvelaşvili ölkənin etnik çeçenlərin məskunlaşdığı və az öncə Rusiya xarici işlər naziri Sergey Lavrovun "terrorçuluq yuvası" adlandırdığı Pankisi dərəsinə səfər edib, burada yerli vətəndaşlarla, ağsaqqallarla söhbətləşib.**




## Rusiya Gürcüstana yeni müdaxilə planı hazırlayır - Azərbaycan da hədəfdə

### Gürcü prezidentin ABŞ və Avropa Birliyi ölkələri səfirləri ilə birgə təcili Pankisi dərəsinə baş çəkməsinin ilginc pərdəarxası; Kreml regionda möhkəmlənmək üçün "çeçen kartı"nı da təzədən işə sala bilər, amma...

Məlumatın ən mühüm detalı isə odur ki, gürcü prezident Pankisi dərəsinə ABŞ və Avropa Birliyinin (AB) bu ölkədəki səfirləri ilə birlikdə yollanıb. "Məni sizin vəziyyətə baxışlarınız maraqlandırır. Sizinlə ünsiyyətdə olmaq istəyirəm. Gəlin gələcək haqda söhbət edək. Bu gözəl dərəni sizlər üçün daha cəlbedici və rahat necə edə bilərik?", - deyə Marqvelaşvili yerli sakinlərlə təması zamanı bildirib.

Xatırladaq ki, son vaxtlar Moskva birbaşa və ya dolayı şəkildə guya Gürcüstan ərazisində terrorçuların mövcud olması mövzusunu qaldırır. Rəsmi Tiflis isə bu iddialara bəyanatla cavab verərək bildirir ki, Pankisi dərəsi tam nəzarət altındadır.

Bununla belə, Suriyada Bəşər Əsəd rejiminin əsas düşmənlərindən sayılan İŞİD-lə mübarizədə 4 ay ərzində ciddi uğura nail olmayan Moskva Pankisi dərəsinin "terrorçu yuvası" olduğunu iddia eləməkdə davam edir - həm də bu iddialar "Qazprom"la danışıqların getdiyi dönəmə təsadüf eləməsi ilə diqqət çəkməkdədir.

***

Sözsüz ki, terror iddialarının arxasında Rusiyanın daha uzaqgedən və məkrli hədəfləri gizlənir. Ehtimal ki, onlardan biri Pankisi dərəsinin potensial "qiyam yuvası" Çeçenistanla, Şimali Qafqazla həmsərhəd olması ilə bağlıdırsa (2-ci "Çeçen müharibəsi"ndə dərə Putinin ram edə bilmədiyi yeganə ərazi olub), ikinci hədəf Kremlin terrorçuluqla mübarizəni bəhanə edib Gürcüstana yeni hərbi müdaxilə planı hazırlaması və bununla onu təhdid altında saxlaması ilə ilgilidir.

Məlumdur ki, son illər Azərbaycanın həm coğrafi, həm də geosiyasi anlamda "Qərb qapısı" sayılan Gürcüstanın ABŞ və AB üçün önəmi artıb. Qonşu ölkə AB-yə, NATO-ya sürətli inteqrasiya kursu götürüb. Ötən il burada Alyansın təlim mərkəzi açılıb və Gürcüstan NATO-ya üzvlüyün bir addımlığına gəlib. Bu isə Moskvada dəfələrlə açıq və güclü qıcıq doğurub.

Məsələn, Rusiya XİN-i Tiflisdə NATO mərkəzinin açılışını Qərbin "təxribatı və bölgəni qarışdırmaq cəhdi" kimi qiymətləndirmişdi. Bundan əlavə, Gürcüstan bölgədən Qərbə istiqamətlənmiş mühüm tranzit arteriyaları üçün əsas ölkə olaraq qalır ki, bu da şimal qonşumuzu narahat edir.

Yeri gəlmişkən, bu ilin sonunda Bakı-Tiflis-Qars dəmiryolu da istifadəyə veriləcək ki, nəticə etibarilə iki Güney Qafqaz ölkəsinin Rusiyadan iqtisadi-siyasi asılılığı bir qədər də azalacaq, uzaq Çin də daxil, onların Şərq-Qərb nəqliyyat dəhlizində rolu artacaq, Azərbaycanla Gürcüstanın iqtisadi gəlirləri çoxalacaq.

Sadalananlarb əlbəttə ki, ABŞ və AB-nin bölgəyə yönəlik prioritet maraqları sferasına daxildir. Ona da şübhə yox ki, Pankisi dərəsinə Gürcüstan prezidenti ilə yanaşı, ABŞ və AB ölkələri səfirlərinin də getməsini öncəliklə bu maraqlar - ilk növbədə gürcü dövlətçiliyini şimal hədələrinə qarşı dayanıqlı etmək imperativi zəruri edib.

Yəni bu, Moskvaya aydın bir mesajdır ki, Gürcüstan 2008-ci ildəki kimi tək deyil. Bu yerdə xatırladaq ki, ötən il ABŞ Senatının qəbul elədiyi sənədə əsasən, Gürcüstan, Ukrayna, Moldova və daha bir neçə postsosialist ölkəsi ABŞ-ın NATO-dan kənar müttəfiqi elan edilib.

***

Məlumat üçün bildirək ki, Rusiyanın yeni və aqressiv Hərbi Doktrinası terrorçuluqla mübarizə adı ilə Putinə istənilən həmsərhəd ölkəyə silahlı müdaxilə hüququ tanıyır. Belə bir müdaxilə söz yox ki, həm də son vaxtlar iqtisadi böhran üzündən "qaynamaqda olan" Şimali Qafqaza və qonşu Azərbaycana da bir güc nümayişi olardı.

Söz düşmüşkən, bu arada Rusiya prezidenti Vladimir Putinlə Çeçenistanın marionet rəhbəri Ramzan Kadırovun münasibətlərinşt pozula biləcəyi və Şimali Qafqazda situasiyanın gərginləşəcəyi haqda ilginc informasiya yayılıb. Belə bir iddia ilə gürcü kökənli tanınmış rusiyalı ekspert Nikolay Svanidze çıxış edib.

Onun sözlərinə görə, Kadırov Putinin vassalıdır, ancaq bu, hələ hər şey demək deyil. Sitat: "Kadırov öz rəhbərindən irəliyə doğru qaçır. Başçı heç kimi önə buraxmamalıdır. Kadırov isə buna məhəl qoymadan başçıya (Putinə -red.) düşmənləri, onlarla necə mübarizə aparmaq qaydalarını söyləyir. Hazırkı şəraitdə əsas məsələ ölkənin iqtisadi vəziyyətinin dəyişməsidir. Çeçenistan dotasiyalar hesabına yaşayan regiondur. İndi Kadırov ölkənin müxtəlif yerlərində aksiyalar keçirməklə göstərir ki, mənim arxamda güclü qüvvə var və buna görə də mənim pulumu kəsməyin. Kadırovun nizamlı ordusu var. Bu ordu şəxsən ona tabedir. Vassalımın vassalı mənim vassalım deyil. Yəni Putin bu orduya heç bir əmr verə bilməz. Kremlin atacağı ilk səhv addım bu regionda qarışıqlığa səbəb olacaq".

Yada salaq ki, az öncə Kadırovun Rusiya müxalifəti ilə bağlı məlum çıxışı böyük etirazlara səbəb olmuşdu. Lakin aksiyalar təkcə Kadırov əleyhinə olmayıb. Məhz çeçen lideri və ətrafının fəaliyyəti nəticəsində Qroznı və Dağıstanın bir neçə şəhərində Ramzan Kadırova dəstək aksiyası keçirilib.

***

Başqa sözlə desək, Putinin "çeçen kartı"nı təzədən işə salacağının mümkünlüyü diqqətdən yayınmamalıdır. Rusiyanın davranışında bu kimi gəlişmələr isə Azərbaycan üçün də yaxşı heç nə vəd eləmir. Unutmaq lazım deyil ki, Azərbaycanın qeyri-ənənəvi radikal islami təriqətlərin yayıldığı şimal bölgəsinə Rusiyanın müdaxilə imkanları qalır. Bəzi məlumatlara görə, həmin regionun əhalisinin gəlirləri birbaşa Rusiyaya bağlı olan kəsiminə çoxdan Rusiya pasportları (vətəndaşlığı) verilib.

Onu da nəzərdən qaçırmaq olmaz ki, Kreml Dağlıq Qarabağda sülhməramlı adı altında hərbi kontingentini yerləşdirmək üçün neçə vaxtdır vasitə və bəhanələr axtarır, "erməni kartı"ndan faydalanmağa çalışır, rəsmi Bakını razı salmağın yollarını arayır. Qarabağdakı rus sülhməramlılar isə bölgənin gec-tez Moskvanın tabeçiliyinə keçməsi deməkdir. 2008-cilin "5 günlük müharibə"si zamanı Abxaziya və Cənubi Osetiyanın zorla Rusiyaya birləşdirilməsi timsalında bunu bütün dünya artıq əyani görüb.

Lakin bir təsəlliverici məqam var ki, Rusiya indi 2008-ci ildəki kimi qüdrətli, iqtisadi cəhətdən güclü və şanslı deyil, ona qarşı effektli beynəlxalq sanksiyalar işləyir. Digər bir yandan, artıq Qərb (ABŞ və Avropa Birliyi) "5 günlük müharibə"dən özü üçün ciddi nəticələr çıxarıb. Üstəgəl, Krımın ilhaqı presedenti. Qərb diplomatlarının Pankisi dərəsinə getməsi bu qənaəti yalnız gücləndirir.

Yekunda əlavə edək ki, bölgə və onun ətrafında situasiyanın hansı istiqamətdə inkişaf tapacağı müstəsna olaraq, getdikcə sanksiyaların daha ağır yükünü öz üzərində hiss etməkdə olan Putinin nə dərəcədə praqmatik qərarlar verəcəyindən asılı olacaq.

❑ **Analitik xidmət**

**Rusiya hərbi hava qüvvələrinə məxsus “SU-34” təyyarəsi Türkiyənin hava məkanını növbəti dəfə pozub. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. İnsidentlə əlaqədar Rusiyanın Türkiyədəki səfiri Türkiyə XİN-nə çağırılıb. Türkiyə XİN-in yaydığı məlumatda bildirilir ki, Türkiyə hava məkanının pozulmasına görə məsuliyyət tamamilə Rusiyanın üzərinə düşəcək. Rus təyyarəsinin heyətinə ingilis və rus dillərində dəfələrlə xəbərdarlıq olunduğu da yayılan məlumatda qeyd olunub.**

# Rusiya Türkiyənin hava məkanını yenə pozdu - ara qarışdı

## Türkiyə Silahlı Qüvvələri hazırlıq vəziyyətinə gətirildi, Ərdoğan “Vur!” əmri verdi; ABŞ, NATO və Avropa Birliyi Türkiyəni dəstəklədi...

Qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu yaşanan insidentdən sonra dünyanın öndə gedən ölkələri ilə önəmli danışıqlar apardığını bildirib. O, hadisədən sonra ABŞ, Almaniya, İngiltərə və Fransanın xarici işlər nazirləri ilə telefon əlaqəsi yaratdığını açıqlayıb. Artıq Türkiyə Silahlı Qüvvələri hazırlıq vəziyyətinə gətirilib. Prezident Rəcəb Tayyib Ərdoğan analoji hal təkrarlanarsa, dərhal “vur” əmri verib.

Rusiyanın Müdafiə Nazirliyi isə ötən ilin noyabrında olduğu kimi, bu dəfə də məlumatı təkzib edir. Qurumun nümayəndəsi general-mayor İqor Konaşenkov bildirib ki, Suriyadakı Rusiyaya məxsus təyyarələrin heç biri Türkiyənin hava məkanını pozmayıb. “Türkiyə tərəfinin ölkənin hava məkanının guya ”Su-34" təyyarəsi tərəfindən pozulması barədə bəyanatı təbliğatdan başqa bir şey deyil" - açıqlamada deyilir.

Pentaqon isə Rusiyanın Müdafiə Nazirliyindən fərqli olaraq, hava məkanının pozulması ilə bağlı rəsmi Ankaranın verdiyi bəyanatı təsdiqləyib. APA-nın məlumatına görə, bu barədə ABŞ Müdafiə Nazirliyinin nümayəndəsi Mark Rayt RİA “Novosti” agentliyinə bildirib. M. Rayt Rusiya və Türkiyəni eskalasiyanın qarşısını almaq üçün danışıqlar aparmağa çağırıb.

“Rusiya döyüş təyyarəsinin yanvarın 29-da Türkiyə və NATO-nun hava sərhədini pozması barədə məlumatlardan xəbərdarıq və bunu təsdiq edirik. Əvvəlki insidentlərdən sonra da bəyan etdiyimiz kimi, ABŞ da NATO kimi, bu məsələdə Türkiyə ilə həmrəydir və biz Rusiyanı Türkiyənin hava məkanına hörmət etməyə, regionda qeyri-stabilliyə səbəb olan əməllərdən çəkinməyə çağırırıq. Rusların və türklərin eskalasiyanın qarşısını almaq üçün danışıqlar aparması vacibdir”-deyə, M. Rayt qeyd edib.

Göründüyü kimi, iki ay öncədən gərginləşən münasibətlər son hadisə ilə daha da artıb. Hadisələr ötən ilin 24-də baş verənlər kimi, cərəyan edir. Fərq sadəcə ondan ibarətdir ki, iki ay öncə Türkiyə tərəfi rus təyyarəsini vursa da bu dəfə hələ ki səbir nümayiş etdirir. Bunun nə vaxta qədər davam edəcəyi məlum deyil.

Heç şübhəsiz ki, baş verənlər şimal qonşumuzun dövlət başçısı Vladimir Putinin itirilmiş nüfuzunu geri qaytarmaq istəyindən doğur. Putin heç vəchlə son aylarda cərəyan edən hadisələrlə barışmaq istəmir. Son təyyarə hadisəsində bir məsələ bir daha diqqət çəkdi. Rusiya növbəti dəfə təkləndi. ABŞ və NATO-nun açıq şəkildə Türkiyəyə dəstək verməsi bunu bir daha sübut etdi.

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Rusiya təyyarəsinin növbəti dəfə Türkiyə sərhə-



**Elxan Şahinoğlu:** “Gərginləşən münasibətlər “isti müharibə”yə də çevrilə bilər”

dini pozması rəsmi Moskvanın hazırladığı hansısa bir planın tərkib hissəsidir: “İlk təyyarə hadisəsindən sonra Rusiya ehtiyatlı olmalı idi. Anlamalı idi ki, Türkiyə sərhədini pozmaq ona baha başa gəlir. İlk dəfə Türkiyə həmin təyyarəni boşuna vurmamışdı. İki dəfə sərhəd pozuntusundan sonra, üçüncü dəfə buna məcbur olmuşdu. Kremlə xəbərdarlıq etmişdi. Bundan dərs almayan Rusiya düşünür ki, Türkiyəni aşağılaya və bu yolla ciddi mesajlar verə bilər. Amma nəzərə alaq ki, Türkiyə Ukrayna və Gürcüstan deyil. Lazım gəlsə, NATO dövləti olaraq, Rusiyanın cavabını yerindəcə verəcək. Vəziyyətin bu yerə gəlməsi hər iki dövlət arasında münasibətləri yenidən pik həddə çatdırır”.

Politoloq onu da bildirdi ki, ilk dəfə Türkiyə rus təyyarəsini vurması belə, hər iki dövlət arasında münasibətlər onsuz da gərginləşəcəkdi: “Baxmayaraq ki, noyabra qədər hər iki dövlət arasında münasibətlər yaxşı idi. Tez-tez aralarında görüşlər olurdu. Ortada böyük layihələr var idi. Amma Suriya məsələsinə görə getdikcə fikir ayrılığı yaranırdı. Çünki Putin açıqlamalarında bildirirdi ki, Əsədə dəstək verəcək. Hətta oradakı başqa qüvvələri də dəstəkləyəcəyini bəyan edirdi. Həmin qüvvələr dedikdə kürdləri nəzərdə tuturdu. Bu da Türkiyə tərəfdə qıcıq oyadırdı. Türkiyə tərəfi Əsədə qarşı mübarizə aparır. Fikir ayrılıqları münasibətləri getdikcə gərginləşdirirdi. Təyyarənin vurulması sadəcə, münasibətləri gərginləşdirdi. Hazırda Rusiya hərbi qüvvələri sərhəddə türkmənləri də bombardman edir. Bu da Türkiyə tərəfdə narazılıq yaradır. Sanki Rusiya bilərəkdən belə edir. Putin öz ölkəsində vəziyyətin pisləşdiyini yaxşı bilir və bu yolla xalqın diqqətini xarici məsələlərə yönəltmək istəyir. Reytinqini qorumağa çalışır. Suriya məsələsi bunun tərkib hissəsi idi. Hazırda insanların çoxu Putinin uğurundan danışır. Halbuki, belə bir uğur yoxdur”.

E.Şahinoğlu bundan sonrakı Türkiyə-Rusiya münasibətlərində baş verəcək amilləri açıqladı: “Düşünürəm ki, bu dəfə də Türkiyə çəkinmədən rus təyyarəsini vuracaq. İkinci xəbərdarlıqdan sonra. Hər iki ölkə arasındakı gərginləşən münasibətlər ”isti müharibə"yə də çevrilə bilər. Nəticədə bölgədə dəhşətli vəziyyət yaranar. Əslində seçim Rusiyanındır. Artıq Ərdoğan təklif edib ki, Putinlə görüşə bilər və məsələləri müzakirə etməyə hazırdır. Rusiya tərəfi bu müzakirədən çəkinir. Bəhanə edirlər ki, rus təyyarəsini vuran şəxs Türkiyədə gizlənir. Onun həbsə alınmasını tələb edirlər. Rus pilotunu vuran şəxsin Türkiyədə sərbəst gəzməsindən qıcıqlanırlar. Rusiya təkcə Türkiyə ilə deyil, Qərb ölkələri ilə də gərginliyə gedir. NATO və ABŞ açıq şəkildə Türkiyəyə dəstək verdilər. İsti müharibə baş versə, Türkiyə tək olmayacaq. Arxasında ABŞ və NATO dövlətləri dayanmaq məcburiyyətindədir".

Siyasi şərhçi Rusiyanın son açıqlamasının noyabrdakı ilə oxşarlıq təşkil etdiyini də qeyd etdi: “Diqqətlə baxsaq, iki açıqlamada elə də fərq yoxdur. İlk dəfə dedilər, sərhəd pozuntusu yoxdur, indi də. Bu, o deməkdir ki, Türkiyə rus təyyarəsini yenə də vursa, Rusiya bunun təxribat olduğunu deyəcək. Hətta vəziyyət daha da gərginləşdirəcək. Hər iki tərəf öz mövqeyinin üzərində dayanacaq. Rusiya sərhəd pozuntusunu etiraf etsə, gərginlik azalar. Amma inkar etməsi, yaxın günlərdə yenidən sərhəd pozuntusunun baş verməsinə səbəb ola bilər”.

Politoloq son hadisələrdə də Rusiyanın təklənməsi və “yazıq görkəm” almasına da toxundu: “Bu fikirlərdə həqiqət var. Putin noyabrda baş verən hadisələrdə açıq şəkildə bildirdi ki, təyyarəni vurmaları az deyil, Türkiyə NATO-nu onu müdafiə etməyə çağırır. Rus hakimiyyəti anlamalıdır ki, Türkiyə NATO ölkəsidir. Türkiyə sərhədinin pozulması NATO sərhədinin pozulması deməkdir. O zaman Avropanın bəzi dövlətləri Türkiyəni can-başla müdafiə etmirdilər. Çünki həmin ölkələrin Rusiya ilə əlaqələri var idi. Əlaqələrin kəsilməsini istəmirdilər. Amma indi eyni hal təkrarlansa, həmin ölkələr Türkiyəni müdafiə etməyə məcbur olacaqlar. Əks halda NATO təşkilat olaraq, aktuallığını itirəcək. Bəlkə də Rusiyanın məqsədi elə budur. Bu yolla NATO-nu zəif təşkilat kimi göstərməyə cəhd edirlər. Bütün hallarda Amerikanın Türkiyəni dəstəkləyəcəyini düşünürəm”.

❑ **Cavanşir ABBASLI**

# Yan Figel Məmmədyarova nə demişdi?



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Səməd Seyidovun AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri vəzifəsindən kənarlaşdırılması xəbəri bomba effekti verdi. Bazar günü onsuz da xəbər korluğu çəkən ölkənin media orqanları rəsmən nə təsdiq, nə təkzib edilən bu məlumatdan gen-bol yararlandılar.**

Bu məlumata şəxsən münasibətini öyrənmək üçün gün ərzində çox çalışdım, nəticəsi olmadı. Xatırladım ki, sonuncu dəfə cənab Seyidovla telefon söhbətimiz 5-6 il əvvəl olub. Onda xəbər yayılmışdı ki, AŞPA-da Səməd müəllimin kürkünü oğurlayıblar.

Bu dəfə də iddia var ki, AŞPA-dakı Qarabağ müzakirələrinə cəmi bir həftə qalmış Səməd Seyidov Strasburqa məktub yazıb. Amma o məktubda torpaqlarımızın işğalı “yaddan çıxıb”, üstəlik, Ermənistanın hərbi təcavüzünün AŞPA tərəfindən qınanmasına çağırış əksini tapmayıb. Hətta deyilir ki, səsvermədə erməni nümayəndə heyəti məruzənin əsassızlığını sübut etmək üçün Seyidovun məktubundan istifadə edib.

Göründüyü kimi, çox ağır ittihamdır, bu məlumatı cavabsız qoymaq isə heç bir məntiqə sığmır. Bəs cənab Seyidov özü istənilən mətbuat orqanına telefon açıb bu məsələyə aydınlıq gətirə bilməzdimi? Bilərdi, amma etmədi. Çünki belə ənənə yoxdur. Baş verən hadisəyə adətən, çevik münasibət görə bilmirik məmləkətimizdə.

Elə bir çox hallarda uduzmağımıza da məhz gecikmiş reaksiyalarımız səbəb olur. Necə ki, AŞPA-da bizim üçün mühüm əhəmiyyət kəsb edən sənədin qəbulu üçün cəmi 4 səs çatmadı və yalnız ondan sonra danışmağa başladıq, di gəl, gec idi.

Bu məsələdə də mətbuatın köməyinə parlamentin mediaya ən açıq deputatlarından biri Fazil Mustafa çatdı, “Səməd Seyidov xəstədir, ayağı ağrıyır” dedi. Allah kömək olsun! Ancaq bir məsələ var ki, söhbət çox ciddi məsələdən gedirsə, ağrıyan insanları dərhal əvəzləmək lazımdır. Lap savaşdakı kimi.

Diplomatik meydanda da ermənilərlə savaşırıq. Hər sənədin önəmi var. Fakt budur ki, AŞPA-da uğursuzluqla üzləşmişik. Düzdür, Sərsəng su anbarı ilə bağlı qəbul olunan sənəddə də Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı əksini tapır. Ancaq birinci sənəd uğrunda daha ciddi savaş gedirdi. Ermənistan hətta Robert Volteri məruzə hazırlamaq üçün ölkəyə də buraxmamışdı.

Nümayəndə heyətinə sədr əvəzi təyin olunmuş Vüsal Hüseynov Harvardın məzunu olsa da, onun Seyidov qədər təcrübəsi, əlaqələri ola bilməzdi. Bu mənada sessiyada yalnız Rəfael Hüseynovun çıxış etmək imkanı qazanması da təkcə ermənipərəstlərin mövqeyinin məntiqi nəticəsi deyildi. Bu, həm də nümayəndə heyətinin faktiki olaraq başsız qalması ilə bağlı idi.

İndi çox söz demək olar. Bəli, AŞPA-da ermənipərəstlər var. Minsk qrupunun həmsədrlərinin Strasburqa “Qarabağ bizimdir, sizin işiniz olmasın” xəbərdarlığı da bizim əleyhimizə işlədi. Şahid olduq ki, həmsədrlər Qarabağı bizə qaytarmaq üçün yox, daha çox özününküləşdirmək uğrunda çalışır və hətta AŞPA-ya da güzəştə getmirlər. Bunu Seyidov ranqlı şəxslər çoxdan bilməli, ona görə də sessiya üçün a, b, v...planını hazırlamalı idi...

AŞPA-da baş verənlərlə bağlı Türkiyənin 4 deputatını asıb-kəsənlər, hətta “xəyanət etdilər” deyənlər oldu. Ancaq heç kim “bəlkə o deputatlardan da kiminsə ayağı burxulub, dizi sıyrılıb” demədi. Özümüzə tez bəraət qazandırırıq.

Qənirə xanım Paşayeva deyib Slovakiya deputatları AŞPA-da Ermənistanın yanında olub. Yadıma xarici işlər naziri Elmar Məmmədyarovun Slovakiya səfəri düşdü. Keçən ilin yanvarında Slovakiya parlamenti sədrinin müavini Yan Figel ilə görüşdən sonra deyilmişdi ki, bu səfərlər ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verir. “Töhfə” bu imiş?!

Qoy, cənab Məmmədyarov da izahat versin. Desin görək, niyə bir sıra dövlətlər Azərbaycan torpaqlarının işğalını təsdiq etməyib? BMT Baş Assambleyasında ABŞ, Rusiya və Fransa ərazi bütövlüyümüzə bitərəf qalanda dedik bunlar həmsədrdir, bitərəf qalırlar, bəs, Slovakiya? Hanı XİN-in ortaya qoyduğu iş? Bəlkə Məmmədyarov da yorulub, desin, işimizi bilək...

Yeri gəlmişkən, sabiq xarici işlər naziri Tofiq Zülfüqarov da deyir ki, XİN-lə bağlı “ən ciddi addımlar atılmalıdır”. Bunu sıradan biri yox, Qarabağın təsliminə etiraz olaraq nazir postundan istefa verən şəxs bildirir.

Son vaxtlar XİN daha çox “qiyamçı diplomatlar” mövzusu ilə gündəmdə olubsa, nazirdən Qarabağı soruşmaq bəlkə də yersizdir. Təbii, Qarabağ cəbhəsində irəli getmək üçün ən azı, addım atmaq lazımdır. Bu yandan da xarici işlər naziri ola biləcək şəxslər sırasında adı çəkilən Səməd müəllimin ayağı ağrıyır...

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016

# "İcra hakimiyyətləri ASAN-laşdırılmalıdır"

**Fazil Mustafa:** "Yerli başçılar və məmurlar prezidentin çağırışlarını sabotaj edirlər..."


Fazil Mustafa

**"İcra başçısı rayonlarda yerli sahibkarı yığıb deməlidir ki, qardaş, başına dönüm, qurban olum, xahiş edirəm ixtisar eləmə. Əhali işləməlidir ki, dolansın". Bu sözləri Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli komitənin son iclasında deyib.**

Gədəbəyli sahibkarlar isə komitə sədrinin çağırışına əllərini yelləməklə reaksiya veriblər. Deyiblər ki, icra başçısı Ramiz Yediyarovun onlara yalvarmasını heç istəmirlər, təkcə işlərinə mane olmasın.

Hadı Rəcəbli parlamentdə çıxış edərkən bir qrup sahibkar Gədəbəydən Bakıya gələrək Vergilər Nazirliyinin önünə getdilər. İş adamlarının tələbi icra başçısı Ramiz Yediyarovun onların fəaliyyətinə yaratdığı süni manеələrin aradan qaldırılması, onlara ödənilməli olan kompensasiyaların ödənməsi ilə bağlı idi. Diqqətçəkən məqamlardan biri də bu idi ki, icra başçısı Yediyarov prezidentin sözlərini plakata yazdıraraq sahibkar Fəxrəddin Bağırova məxsus obyektin qapısına vurdurub. Bundan sonra icra başçısı elan edib ki, plakatın sökülməsi sahibkarın ölkə rəhbərliyinə qarşı getməsi kimi anlaşılacaq! Odur ki, sahibkarın obyektində iş dayanıb.

Yəni icra başçısı öz qanunsuzluğunu prezidentin sözlərindən sahibkarın qarşısına sipər çəkməklə gizlətməyə çalışıb. Belə halların qarşısını almaq üçün hansı addımlar atılmalıdır, sahibkarlara qan udduran icra başçılarını durdurmağın yolları varmı?

Deputat Fazil Mustafa deyir ki, prezident bütün gücünü ortaya qoymaqla yerlərdə sahibkarlara qarşı yol verilən belə qanunsuzluqların aradan qaldırılmasına çalışır: "Prezidentin hər bir icra başçısına, yerlərdəki məmura nəzarət etmək imkanı xaricindədir. Bunun üçün müvafiq qurumlar var və onlar belə məsələlərin aradan qaldırılması üçün hərəkətə keçməlidirlər. Çox təəssüf ki, belə halların qarşısını almalı olan qurumalrın özləri daha çox belə hərəkətləri stimullaşdıran fəaliyyətlə məşğuldurlar. Əslində belə qanunsuzluqlara yol verən icra başçıları və məmurlar prezidentin çağırışlarını sabotaj edirlər".

F.Mustafa deyir ki, belə neqativ, sahibkarlara qarşı qanunsuzluqlar etmiş məmurlar, icra başçıları tutduqları vəzifələrdən tezliklə çıxrılmalıdırlar: "İcra başçısı obrazı dəyişdirilməlidir. Bu tipli icra başçıları nə qədər tapşırsan da, bu adamlar xırda ticarətlə məşğul olan zehniyyətə sahib olduqlarından onlar üçün insan haqları, mülkiyyət maraqları anlayışları yaddır. Sadəcə, problemin dərinliyini, ölkənin iqtisadi durumunun yaxşılaşması üçün sahibkarların həlledici rollardan birinə malik olmalarını başa düşmürlər. Bu adamların yaranmış situasiyaya hazırlığı yoxdur. Bir sıra icra başçılarının, belə ampluada olan məmurları dəyişib yerinə sağlam, gənc və insan haqlarını, dövrün tələblərini başa düşən kadrların təyinatı vacibdir. Belə olmasa, ölkədə durum yaxşılığa doğru dəyişə bilməz".

F.Mustafa deyir ki, icra başçılarının sahibkarlara qarşı qanunsuzluqları qulaqardına vurulmamalıdır: "Bu adamlar qulaqlarını tıxayıb sahibkarları eşitmək belə istəmirlər. Bu halda prezidenti necə eşidəcəklər? Belə kadrlarla, icra başçıları ilə ölkəni düşdüyü durumdan çıxarmaq çətin olacaq. Həmişə almağa, qanunsuz olaraq mal-mülk əldə etməyə alışmış şəbəkə heç vaxt könüllü şəkildə bu əməlindən əl çəkməyəcək. Hakimiyyətə dəstək verən, dürüst, ağıllı kadrlar var. Quldur xisləti adamların yerinə cavan kadrları icra başçısı təyin etməklə vəziyyəti dəyişmək olar. ASAN xidmət çalışmış, oradakı mühitdə tərbiyə olunmuş kadrlar özləri rüşvətxor cildinə girməyi şəxsiyyətlərinə sığışdırmayacaqlar. Məsələni belə bir modelin tətbiqi ilə həll etmək faydalı olardı".

Qeyd edək ki, prezident son müşavirələrdə icra orqanlarından sahibkarlara şərait yaradılmasını tələb edib, onların fəaliyyətini stimullaşdırılmasının vacibliyini xüsusi vurğulayıb, süni əngəllərin aradan qaldırılmasını tapşırıb. Lakin regionlardan redaksiyamıza daxil olan şikayətlər, sahibkarların Bakıya üz tutaraq ən müxtəlif dövlət qurumlarında icra başçılarının qanunsuzluqlarına çarə axtarmaları ölkə rəhbərliyinin çağırışlarına səs verilmədiyini sübut edir.

❑ E.MƏMMƏDƏLİYEV

# Banklardan borclulara "əcəl zəngi" gəlməyəcək

**Müzəffər Baxış:** "Bank əməkdaşlarını cinayət məsuliyyətinə cəlb etmək üçün əsas yaranır"

**Banklarla əlaqəli intiharlar bir-birini əvəzləyir. Hər gün bir bankın müştərisinin özünü asdığı, yandırdığı, həyatına qəsd etdiyi haqda məlumatlar yayılır. Bir qədər əvvəl Bakı metrosunun "Azadlıq prospekti" stansiyasının yaxınlığında - "Muğanbank"ın filialının qarşısında Malik Hüseynov adlı orta yaşlı şəxs intihara cəhd edərək özünü yandırıb.**

Bakı şəhər sakini Elvin Mehdiyev isə özünü "Nikoil" bankının Puşkin küçəsi, 30 ünvanında yerləşən ofisinin qarşısında yandırmağa cəhd edib. O, üstünə benzin tökərək özünə od vurmaq istəsə də, yaxınlıqdakı insanlar buna imkan verməyib. Bərdə rayonunda 23 yaşlı gənc özünü Tərtərçay üzərindəki körpüdən asmaqla intihar edib. Verilən məlumata görə, 35 yaşlı Elşad Dadaşovun bu addımı atmasına səbəb banklara olan kredit borcunu ödəyə bilməməsi olub.

Biləsuvar rayonunda Telekommunikasiya Qovşağının rəisi İlkin Ağayev iş otağında özünü asıb. Onun banklara kredit borcu olması səbəbindən intihar etdiyi xəbəri yayılıb. Biləsuvarın Bəydilli kəndinin sakini Cavanşir Məmmədov da özünü asaraq intihar edib. 40 yaşı olan C.Məmmədovun özünü asmasına səbəb kimi banklara olan borcu göstərilir. Mərhum ailəli olub, bazarda meyvə satırmış.

Bank sektorundakı mənbədən aldığımız məlumata görə, Mərkəzi Bankdan bir çox


Müzəffər Baxış

banklara borclu müştərilərə zəng etməmək, onları narahat etməmək tapşırığı verilib. Mənbəmiz deyib ki, bu tapşırıq borclu müştəriləri kəskin addımlardan yayındıracağı düşüncəsi ilə verilib. Əvəzində banklara borclu müştərilərlə yaranmış problemlərin məhkəmələrdə çözülməsi tövsiyyə olunub.

Qanuna görə, intihar, özünə qəsd faktı varsa, Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanılır və intiharın səbəbi araşdırılmağa başlanır. Əgər vətəndaşı özünü öldürmə həddinə çatdıran şəxs varsa, müəyyən olunaraq istintaqa cəlb olunmalıdır. Amma reallıq başqadır. Belə cinayət işlərinin 99 faizindən artığı intihara sürükləyən şərtləri yaradanların müəyyən olunmaması ilə sonuclanır və cinayət işinə xitam verilir. Banklarla əlaqəli cinayət işlərində vətəndaşın intiharına yol açan şəraiti yaradan şəxslər kimi bankların işçiləri məsuliyyətə cəlb oluna bilərmi? Özünü öldürmüş müştəriyə ölümündən əvvəl zəng etmiş bank işçisi istintaqa cəlb olunmalıdırmı?

"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış deyir ki, əgər bank əməkdaşı vətəndaşın kreditlə aldığı maşını, əmlakı heç bir məhkəmə qərarı olmadan əlindən alırsa, burada qarnunsuzluğa yol verirlər: "Bank əməkdaşı həmin kreditordan pulu geri tələb edirsə və bu tələblər əsasında kimsə özünü öldürürsə Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə bank əməkdaşını cinayət məsuliyyətinə cəlb etmək mümkün deyil. Çünki həmin maddənin dispozisiyasında belə təsbit olunub ki, təqsirkardan maddi, xidməti və s cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma hərəkətləri nəzərdə tutulur. Sübut olunmalıdır ki, bank əməkdaşı ilə zərərçəkən şəxs arasında maddi asılılıq olub.

Dispozisiyadakı 3 şərt də sübut olunmalıdır - Bank əməkdaşı zərərçəkənlə amansız davranıb; onun ləyaqətini mütəmadi olaraq alçaldıb; mütəmadi olaraq hədə-qorxu gəlib və zərərçəkən sonuc olaraq intihar edib. Bütün bunları sübut etmək çox çətindir".

M.Baxış deyir ki, bu baxımdan CM-nin 125-ci maddəsini bank əməkdaşlarına tətbiq etmək çətindir: "Amma belə hallar da olur ki, vətəndaş avtomobili kreditlə alıb və sonradan krediti vaxtında ödəyə bilmir. Belə bir halda bank əməkdaşı özbaşına olaraq həmin avtomobili kreditordan alırsa və ya digər qanunsuz hərəkətlərə yol verirsə, bank əməkdaşlarını cinayət məsuliyyətinə cəlb etmək üçün əsas yaranır".

❑ E.MƏMMƏDƏLİYEV

# "Manat hələ öz təbii axarına düşməyib"

**Ekspert:** "Valyutadəyişmə məntəqələrinin bağlanması iqtisadi mexanizm deyil, inzibati yoldur..."

**Son günlər dünya bazarında neftin qiymətinin artması ilə yanaşı manatın da dollara nisbətdə bahalaşmasının şahidi oluruq. Mərkəzi Bankın bu günə olan rəsmi məzənnəsinə görə, hazırda 1 dolların qiyməti 1,5972 AZN təşkil edir.**

Öncəliklə qeyd edək ki, ikinci devalvasiyadan sonra yaranan ajiotaj zamanı valyutadəyişmə məntəqələrinin önündə insan axınları müşahidə olunurdu. Həmin zamanlar ekspertlər bildirirdirlər ki, insanlarda dollara olan kəskin tələbat da manatın ucuzlaşmasına səbəb olan amillərdəndir. Nəticə olaraq bu ajiotaj uzun sürdüyü üçün rəsmi qərarla ölkədə valyutadəyişmə məntəqələrinin fəaliyyəti tamamilə dayandırıldı. Ölkədə dollar satışını isə yalnız banklar həyata keçirməyə başladılar.

Hazırda manatın ucuzlaşması onun kursunun normal axına qədəm qoyması və sabitləşməsi deməkdirmi?




Məsələ ilə bağlı musavat.com-a danışan iqtisadi ekspert Natiq Cəfərli bildirib ki, valyutadəyişmə məntəqələrinin bağlanılması iqtisadi mexanizm deyil: "Bu, bir növ inzibati qaydada manatın məzənnəsinin daha da aşağı düşməsinin qarşısını almağa hesablanıb. Ancaq bu iqtisadi mexanizm deyil, inzibati yoldur. Bu gün xarici valyutanın banklar vasitəsi ilə alış-satışı həyata keçirilir. Şənbə və bazar günləri isə bankların işləməməsi, əhalidə də müəyyən narahatçılıq doğurmasına səbəb olur. Eyni zamanda müəyyən dərəcədə "qara bazar"ın da yaranması üçün şərait olur. Son günlər Mərkəzi Bankın rəsmi məzənnəni çox cüzi olsa da aşağı salması, müəyyən dərəcədə vəziyyətin stabil olduğunu sərgiləyən addımdır. Bu, psixoloji nöqteyi-nəzərdən doğru qərardır. Çünki əhalidəki ajiotajı sakitləşdirmək lazım idi. Lakin hazırda yenə də problemlər var. İnsanların banklardan 300 dollardan yuxarı vəsait alınmasında problemlər yaranır. Bir çox hallarda isə banklar dollar alsalar da, satmaqdan imtina edirlər. Bu isə onu göstərir ki, manat öz normal axarına qədəm qoymayıb. Təəssüf ki, manatın normal şəkildə bazar qaydalarına uyğun tənzimlənməsi üçün lazımı alətlər çox azdır".

Ekspert bildirib ki, valyuta sata biləcək qurumların sayı çox azdır: "Mərkəzi Bank və Neft Fondundan başqa demək olar ki, valyuta çıxarıb satan təşkilatlar yoxdur. Bu da banklararası valyuta birjasının olmamasına səbəb olur. Misal üçün, qonşu Rusiya da bizə çox bənzər iqtisadi modelə malikdir. Lakin buna baxmayaraq, orada hər gün 10 minə yaxın şirkət bazarda valyuta alqı-satqısını həyata keçirir. Azərbaycanda belə bir mexanizm olmadığından, ancaq inzibati qaydada manatın məzənnəsini saxlamağa müvafiq olurlar. Düşünürəm ki, bir müddət sonra bu inzibati qaydada tənzimləmə də problemlər yaradacaq. Çünki ölkədə idxaldan asılılıq var. Xaricdən mal gətirməyə çalışan iş adamları isə artıq çətinliklərlə üzləşirlər. Bu baxımdan hesab edirəm ki, bir müddət sonra ölkədə müəyyən malların qıtlığı da yarana bilər".

❑ Əli RAİS

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016



# "Bütün kozırlar indi Bakının əlindədir"

## AŞPA-dakı son müzakirələr Qarabağ konflikti ətrafında yeni situasiya, Azərbaycana isə unikal imkanlar açıb; rusiyalı politoloq: "Avropa Şurası qəbul elədiyi sənədlə Dağlıq Qarabağ məsələsində Bakıya kart-blanş və sanballı kontur-arqument verib..."

**İstənilən vasitəçiliyin əsasında, sözsüz ki, tərəfsizlik və qərəzsizlik, obyektiv ədalətlilik prinsipləri dayanmalıdır. Əfsuslar olsun ki, Dağlıq Qarabağ məsələsinin həllində bu missiyanı öz üzərinə götürmüş ATƏT-in Minsk Qrupundan bu keyfiyyəti on illərdir müşahidə edə bilmirik və belə görünür, belə bir şeyi heç gözləməyə də dəyməz. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) son sessiyasında Qarabağa dair qətnamənin aqibəti buna şübhə yeri saxlamadı.**


Oleq Kuznetsov

Təbii ki, ərazisinin 20%-i erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan Minsk Qrupunun ermənipərəst mövqeyinin fərqindədir və başqa həll formatları və ədalətli vasitəçilik institutu tapmaq zorundadır. Rəsmi Bakı buna, sadəcə, məhkumdur.

"Ermənistan danışıqlar prosesində vaxt uzadır, ATƏT-in Minsk Qrupu isə məsələnin həllinə yox, dondurulmasına çalışır". Bu sözləri Azərbaycan prezidenti İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə ötən həftəsonu keçirdiyi görüşü zamanı deyib. Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu deyən dövlət başçısı bir daha qeyd edib ki, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək.

Lakin bundan ötrü iki əsas yol var - sülh və hərb yolu. Müharibə variantı bəlli səbəblərdən hələlik istisnadır. Hər halda, Azərbaycanın uğurlu hərbi əməliyyatlar aparması üçün zəruri regional və beynəlxalq şərtlər yetişməmiş kimi görünür. Bundan ötrü ən azından Ermənistanın əsas hərbi müttəfiqi Rusiyanın neytral qalacağına əmin olmaq gərəkdir.

Qalır ikinci - sülh yolu. Bu yol ağır, mürəkkəb olsa da, əlbəttə ki, müharibədən yaxşıdır - əgər həm işğalçı tərəf, həm də vasitəçilər konstruktiv mövqe tutsa, beynəlxalq hüquq prinsiplərinə hörmət eləsə. Bu da hələ ki, gözə dəymir. Təbii ki, ölkəmizin dünyadakı demokratik imici də məsələdə öz neqativ rolunu oynamaqdadır və bu amil üzərində də Bakının ciddi düşünməsinin vaxtı çatıb.

***

Ancaq mərkəzi səbəb kimi obyektiv vasitəçilik ən aktual problem olaraq qalmaqdadır. Bu üzdən 25 ildir işğaldan əziyyət çəkən Azərbaycanın məsələni AŞPA-nın diqqətinə gətirmək istəyi gərək ki, hamı tərəfindən, ələlxüsus da Minsk Qrupu həmsədrləri tərəfindən anlaşıqlı qarşılansın. Amma əksi müşahidə edildi.

Çox qəribədir, vasitəçilik könüllülük prinsipi əsasında olduğu halda, həmsədrlər problemin AŞPA gündəliyinə gətirilməsini az qala süngü ucunda qarşılayaraq, əsassız yerə özlərinin "əvəzolunmazlığını" qabartdılar və hətta AŞPA-ya, Azərbaycana təzyiq xarakterli bəyanat verdilər. 23 illik vasitəçilik uğursuzdursa, görəsən ondan imtina nədən mümkün olmasın? Zorən vasitəçilik, üstəlik, effektsiz vasitəçilik olurmu?

Bu xüsusda AŞPA-nın son sessiyasında Ermənistanın işğalçılığı ilə bağlı müzakirəyə çıxarılmış və biri qəbul edilən iki qətnamə ətrafında müzakirələr davam edir. Bir sıra analitiklərə, o sırada erməni təhlilçilərinə görə, Sərsəng su anbarı ilə bağlı qəbul olunmuş qətnamə də Azərbaycanın kifayət qədər ciddi uğurudur, çünki orada Ermənistan birmənalı şəkildə işğalçı kimi göstərilməklə yanaşı, sənəd Bakıya başqa siyasi avantajlar yaradır.

***

"Beynəlxalq təşkilatın Azərbaycanın xeyrinə qəbul elədiyi istənilən rəsmi sənəd Dağlıq Qarabağ münaqişəsinin və ya onun nəticələrinin təsnifləndirilməsi baxımından rəsmi Bakı üçün mühüm önəm kəsb edir, ona görə ki, İrəvana təzyiqlər və diplomatik manevrlər üçün daha bir plasdarm yaradır". Bu fikri rusdilli vesti.az saytına müsahibəsində rusiyalı siyasi analitik Oleq Kuznetsov söyləyib.

Politoloqun sözlərinə görə, AŞPA qətnaməsi ilə Azərbaycanın sərəncamına həm de-yure, həm də de-fakto öz xarici siyasətinin müdafiəsi xeyrinə növbəti beynəlxalq-hüquqi alət verilib: "Bu alətdən ağılla istifadə eləmək lazımdır. Çünki istəsək də, istəməsək də bizi əhatə edən dünya dilalektika qanunları əsasında yaşayır. Həmin qanunlardan biri kəmiyyət dəyişikliklərini keyfiyyət dəyişikliklərinə çevirmək zərurətini özündə ehtiva edir. Bu mənada Azərbaycan AŞPA-dan Dağlıq Qarabağ məsələsindəki mövqeyinə dəstək kimi daha bir sanballı arqument alıb".

Ekspertin qənətincə, qəbul edilən qətnamə keçməyən qətnamə ilə müqayisədə Azərbaycandan ötrü daha vacib sənəddir: "Bildiyim qədər Robert Uolterin məruzəsi müstəsna olaraq siyasi xarakterli idi və bu səbəbdən əgər keçsəydi, o, sırf siyasi xarakter daşıyacaqdı. Mahiyyətcə həmin sənəd hansısa real nəticələr vəd eləmədən faktların konstatasiyasından ibarət idi, konfliktin nizamlanmasında özünəməxsus dalan budağı idi. Qəbul edilən ikinci qətnamə isə onun məzmunun hüquqi interpretasiyası üçün geniş məkan açır, yəni Bakının növbəti addımları üçün real bazis qismində çıxış edir. İndi Azərbaycan rəhbərliyi və ölkənin xarici siyasət idarəsi qarşısında bütün ciddiliyi ilə belə bir sual durur ki, əldə olunan yeni alətdən Azərbaycan xalqının maraqları üçün rasional şəkildə necə istifadə eləmək olar?

Şəxsən mən hesab edirəm ki, Bakının növbəti addımı erməni işğalçı qüvvələrinin Sərsəng su anbarı ətrafında hərəkətlərini ekosid kimi tanınması yönündə təşəbbüs olmalıdır. Vaxtilə BMT Dağlıq Qarabağda meşə yanğınları ilə bağlı qətnamə qəbul eləmişdi və bu vəziyyətə görə Ermənistanın işğalçı hakimiyyətini situasiyanın günahları kimi göstərmişdi. İndi rəsmi Bakının sərəncamında üstəlik, AŞPA-nın Sərsəng su anbarı ilə bağlı sənədi var. Fikrimcə, bu iki sənəd kifayətdir ki, beynəlxalq hüquq instansiyalarında təbii resursların və obyektlərin ermənilər tərəfindən qəsdən məhv edilməsinə dair araşdırmalara başlansın.

Konkret nədən söhbət getdiyini başa düşməyənlər üçün izah edim ki, "ekosid" anlayışı altında dünya hüquq elmi və praktikasında bitki və heyvan aləminin kütləvi şəkildə məhvi, atmosferin və ya su hövzələrinin zəhərlənməsi, həmçinin, ekoloji fəlakətlərə gətirən digər hərəkətlər nəzərdə tutulur. Ekosid - dünyaya və bəşəriyyətin təhlükəsizliyinə qarşı cinayət sayıldığından, onun cinayət-hüquqi kvalifikasiyasının əsasında beynəlxalq hüquq normaları dayanır ki, bunu da Azərbaycan XİN-in hüquqşünasları yaxşı bilməlidir".

Analitik bu üzdən erməni tərəfinin sevinməsi üçün heç bir əsas görmür: "AŞPA əslində erməni tərəfə onu sakitləşdirmək üçün sümük atıb, sümüyün "əti-ni" isə Azərbaycana verib. Bütün kozırlar indi Bakının əlindədir. Qarabağ qətnaməsinin keçməməsi o deməkdir ki, qurum Azərbaycanın hərbi xarakterli hərəkətlərinə normal baxır. Yəni sənədin keçməməsi ilə Bakı faktiki surətdə Dağlıq Qarabağda erməni qüvvələrini ağır hücum silahlarından istifadə etməklə bundan sonra da metodik şəkildə məhv eləmək üçün AŞPA-dan kart-blanş əldə edib. AŞPA parlamentarilərinin nəzərincə, belə hərəkətlər artıq "zoraqkılığın artması" hesab olunmur. Qısası, yeni situasiyaya mətnlər prizmasından deyil, ilk növbədə bu sənədlərin açdığı imkanlar prizmasından baxmaq lazımdır. Açılan imkanlar isə çox-çox genişdir..."

***

Rusiyalı analitikin maraqlı təkliflərini, yəqin ki, Azərbaycan hökuməti, Xarici İşlər Nazirliyi nəzərə alacaq. Ən əsası, bu təkliflərin reallaşması erməniperəst mövqe tutan Minsk Qrupu həmsədrlərini də fakt qarşısında qoya, onları öz mövqelərinə düzəlişlər etməyə vadar edə bilər. Əks halda, özünüifşa və yeni həll formatı daha sürətlə gündəmə gələcək.

# Azərbaycan XİN "Zvezda" telekanalının Qarabağ təxribatına reaksiya verdi

**""Zvezda" telekanalının efirində 28 yanvar 2016-cı il tarixində getmiş xəbərdə Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimə "Dağlıq Qarabağ Respublikası" kimi müraciət edilməsi təəssüf və narahatlıq doğurur".**

Bunu Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib. Hikmət Hacıyev bildirib ki, Azərbaycanın Rusiyadakı səfirliyi tərəfindən sözügedən məsələ ilə ələqədar narazılıq "Zvezda" teleradio şirkətinin rəhbərliyinə çatdırılacaq və bu yanlışlığın aradan qaldırılması üçün tədbirlər görüləcək: "Rusiya Silahlı Qüvvələrinin teleradio şirkəti olan "Zvezda"nı Azərbaycan və Rusiya arasında olan dostluq və strateji tərəfdaşlıq əlaqələrini və həmçinin, ABŞ və Fransa ilə birlikdə ATƏT-in Minsk Qrupunun həmsədri kimi, Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsinin həllində oynadığı rolunu nəzərə alaraq, gələcək fəaliyyətində Azərbaycan üçün həssas olan bu kimi məqamlara xüsusi diqqətlə yanaşmağa çağırırıq".




Xatırladaq ki, "Zvezda" telekanalının saytında B. Saakyan "Artsax"ın - "Dağlıq Qarabağ Respublikası"nın rəhbəri kimi təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# 23 ildir sahibi çıxmayan ali orden...

**Sabir Rüstəmxanlı:** "Bu gün Şah İsmayıl Xətai qəhrəmanlığını göstərən kimsə yoxdur..."




**Məlum olduğu kimi, bir neçə gün bundan öncə ölkə prezidenti bir sıra məsələlər ilə bağlı 12 sərəncam və 7 fərman imzaladı. Onların arasında "Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statusunun və təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 64-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam var.**

Sərəncamda bildirilir ki, qərarın verilməsində məqsəd qeyd edilən Qanunun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etməkdir. 23 ildir ki, təsis olunan, lakin təltif siyahısında yer almayan ali orden...

Xatırladaq ki, "Şah İsmayıl" ordeni 1992-ci il dekabrın 6-da sabiq prezident Əbülfəz Elçibəyin fərmanı əsasında təsis edilib. O dövrdə Milli Məclis də həmin ordenin statusunu və təsvirni təsdiqləyib. Qanuna əsasən ali orden olan "Şah İsmayıl" ordeni ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri təltif edilirlər. Bu orden ordunun təşkilində və möhkəmləndirilməsində xüsusi xidmətlərinə, görkəmli sərkərdəlik fəaliyyətinə, fövqəladə halların nəticələrinin aradan qaldırılmasında xüsusi xidmətlətinə görə verilir. Milli Məclisin təsdiqlədiyi "Ordenlərin taxılması qaydaları haqqında" qanuna görə "Şah İsmayıl" ordeni döşün sol tərəfinə, digər orden və medalları olduqda "İstiqlal" ordenindən sonra taxılır.

"Şah İsmayıl" ordeni ilk dəfə təsis olunanda onun təsviri düzgün səkkizguşəli ulduz şəklində gümüşdən olub. Ulduzun mərkəzində üzü qızıl suyuna salınan lövhə fonunda Şah İsmayılın əksi profildən təsvir edilib. Arxa tərəfdə "Şah İsmayıl" yazılıb. Ondan aşağıda ordenini nömrəsi həkk edilib.

2015-ci il 18 dekabr tarixində prezident İlham Əliyev tərəfindən imzalanan qərara əsasən ordenin təsviri daha da mükəmməşdirilib. Qərara görə Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeni biri digərinin üzərində yerləşdirilən, biri digərinə nisbətən ox ətrafında dönmüş iki səkkizguşəli ulduzdan ibarətdir. Arxa şüalar platindən, ön şüalar isə qızıldandır. Üst hissədə olan ulduz daha uzun şüalıdır, mərkəzində qızıldan girdə lövhə yerləşir. Həmin lövhənin üzərində Şah İsmayılın əksi profildən qabarıq təsvir olunub. Lövhənin aşağısında "Şah İsmayıl" sözləri yazılıb. Əvvəlki təsvirlə müqayisədə dəyişilik qızıl suyunun, qızıl materialı ilə əvəz edilməsi olub.

Artıq 23 ildir ki, təsis edilən orden nədənsə bu günədək öz sahibini tapa bilməyib. Səbəb nədir? Sabiq deputat, Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri Sabir Rüstəmxanlı məsələyə bu cür şərh verdi: "Şah İsmayıl" ordeni əgər bu günədək heç kimə verilməyibsə, deməli, o ordenə layiq olan bir iş görülməyib və adam yoxdur. Yəqin ki, vaxtı gələndə, layiq olan ortalığa çıxsa, verilər. Ümumiyyətlə, orden və medalların sağa-sola paylanılmasının tərəfdarı deyiləm. Ona görə bu məsələyə normal baxıram".

Sabiq parlament üzvü Azərbaycanda bu gün Şah İsmayıl Xətai qəhrəmanlığını göstərən hər hansı bir şəxsin olmadığını dedi: "Onun ideyalarının həyata keçirilməsi, qurduğu böyük dövlətin ən azı müəyyən bir çərçivədə qorunması, o istiqamətdə addımların atılması baxımından bir kimsə yoxdur. Amma Şah İsmayıl, azərbaycançılıq sevgisi ilə yaşayanlar çoxdur. Buna baxmayaraq Şah İsmayıl Xətai qəhrəmanlığını göstərən bu gün yoxdur".

Onu da əlavə edək ki, 2011-ci ilin sentyabr ayının 5-də Bakı şəhərində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərmarka" şirkəti tərəfindən Azərbaycan ordenlərinə həsr olunan yeni poçt markaları təqdim edilib. Həmin markalardan biri də "Şah İsmayıl" ordeninə həsr olunub.

❑ **Xalidə GƏRAY**

**İşsizlik, sosial problemlər Azərbaycanın bütün bölgələrində mövcuddur. Son zamanlar isə bu problemlər, xüsusilə də işsizlik daha da qabarıq şəkildə gün üzünə çıxmağa başladı. Devalvasiyadan sonra ölkədə yaranan iqtisadi böhran, bağlanan xeyli sayda iş yerləri, baş verən bahalaşma müxtəlif rayonlarda etirazlara səbəb oldu. Bəzi bölgələrdə yerli camaat işsizliyə, bahalaşmaya etiraz edərək aksiyalar keçirdilər. Zaman keçdikcə sosial problemlərin miqyası genişlənməyə başlayır.**

Rayonun mərkəzi küçəsində, parkın ətrafında gündəlik qazanc üçün işləyən xeyli sayda fəhlə də görmək mümkündür. Onlar arasında əlillər də var. İşsizlikdən əziyyət çəkdiklərini deyən rayon sakinləri çıxış yolunu fəhləlik etməkdə görürlər. Onlar hər gün səhər saatlarında rayon mərkəzinə toplaşır-

Salahlı kəndindən də düşür. Palçıqlı, çala-çuxurlu yollarla irəliləyərək kənd mərkəzinə çatırıq. Burada xeyli sayda işsiz kəndli ilə rastlaşırıq. Onlar gün ərzində kəndin mərkəzi hissəsində toplaşırlar, söhbət edirlər, axşam isə mal-heyvan örüşdən qayıdandan sonra evlərinə dağılışırlar.

# İşsizlik, dolu çayxanalar, siqaret satan sürücülər...

## Qazax sakinləri də sosial problemlər məngənəsində boğulur









İşsizlik və sosial problemlərdən əziyyət çəkən bölgələrimizdən biri də Qazaxdır. Musavat.com-un reportyor qrupu Qazax rayonunda olarkən yerli sakinlərlə söhbət edib, qarşılaşdıqları problemləri dinləməyə çalışıb.

Qazaxda olarkən əvvəlcə rayon mərkəzindəki çayxanalardan birinə yollandıq. Yuxarıda da qeyd etdiyimiz kimi, rayonda əsas problem işsizlikdir. Elə rayonun mərkəzi küçəsində yerləşən çayxanalar da bu səbəbdən insanlarla doludur. Rayon mərkəzində çayxanalarda çayın qiyməti 50-70 qəpik arasında dəyişir. Burada çayxanalar əsasən odun sobaları ilə qızdırılır, çaylar odun sobalarında dəmlənir.

Çayxanalarda odun sobalarından istifadə olunmasının səbəbi bu obyektlərə qaz xəttinin çəkilməsi üçün tələb olunan məbləğin çox olmasıdır. Obyekt sahibləri deyir ki, qaz xəttinin verilişi üçün 4 min manat tələb edirlər. Bu isə 50-70 qəpiyə çay satan heç bir obyekt sahibinə sərf eləmir.

Rayon mərkəzində və kəndlərdə yaşayan sakinlər təxminən saat 11-12 radələrindən sonra çayxanalara axışır. Əsas məşğuliyyəti kənd təsərrüfatı olan sakinlər işlərini bu saatlaradək yekunlaşdırıb çayxanalara gəlirlər. Axşama qədər çayxanalarda domino, nərd davam edir...

Rayon sakinlərinin kənd təsərrüfatından əsas qazancı öz tələbatlarını ödəməkdir. Sakinlər biznes məqsədi ilə təsərrüfatla məşğul olmağın çətin olduğunu deyirlər. Buna görə də özləri üçün mal-qara saxlayır, əkinlə məşğul olurlar. Rayon ərazilərində ucsuz-bucaqsız əkin sahələri var. Lakin onun çox az bir hissəsi rayon sakinləri tərəfindən becərilir.

Qazaxda yerli camaatın bir hissəsinin də gəlir yeri "Sınıq Körpü" ("Qırmızı Körpü") keçid məntəqəsidir. Rayon və kənd sakinləri - kişilər, qadınlar, qocalar gün ərzində "Sınıq Körpü"dən keçirdikləri siqaret, mandarin, spirtli içkiləri satmaqla pul qazanırlar.

Elə çayxanalardan birində yerli sakinlərlə söhbət edərkən onların əksəriyyətinin bir neçə gün fasilələrlə "Sınıq körpü"dən mal gətirdiyini öyrənirik. Rayon sakinləri keçid məntəqəsində də problemlərlə üzləşirlər. Kənd sakinləri deyir ki, onları əsasən Gürcüstan tərəfdə incidirlər, alver edənləri həm növbələrdə, həm də mal alarkən sıxışdırırlar.

Sakinlərin sözlərinə görə, "Sınıq körpü"dən adam başına 3 blok siqaret, 3 ədəd spirtli içki və 20 kiloqrama qədər mandarin keçirməyə icazə verilir. Rayon mərkəzində səyyar siqaret satışı ilə məşğul olan xeyli sayda insan görmək mümkündür. Keçid məntəqəsindən müxtəlif yollarla xeyli sayda mal keçirməyi bacaranlar da var. Onlar malları başqa rayonlara və ya Bakıya gətirirlər.

lar. İş tapdıqları halda gündəlik qazancları 7-8 manat olur.

Söhbətləşdiyimiz fəhlələr işsizliklə yanaşı, sosial yardım ala bilmədiklərini deyirlər. Sosial yardımın verilməsi zamanı onlara yaradılan süni problemlərdən narazı olan rayon sakinləri yerli məmurların onları incitməsindən gileylənir.

Rayon mərkəzində iş axtaran fəhlələr, taksi sürücüləri belə siqaret satışı ilə məşğuldur. Rayon mərkəzində addımbaşı əlində siqaret satan insanlarla rastlaşmaq mümkündür. "Sınıq Körpü"dən keçirilən siqaret və digər məhsullar insanların qazanc yeridir. Ən ucuz siqaretin bir qutusunun qiyməti 1-1.2 manatdır. "Pirveli" və "Astra" rayonda ən çox satılan siqaretdir.

Hər kəsə məlumdur ki, bölgələrdə əsasən məmurlar daha çox diqqəti və vəsaiti rayon mərkəzlərinə ayırırlar. Rayon mərkəzlərində sosial problemlər həll olunur, dövlət büdcəsindən ayrılan vəsaitlər mərkəzdəki abadlıq işlərinə xərclənir. Qazax da həmin bölgələrdən birdir. Rayon mərkəzində yeni tikilən dövlət idarələri, abadlaşdırılan parklar diqqət çəkir. Rayondan uzaqlaşdıqca isə kəndlərə aparan yollardan artıq sosial problemləri hiss etməyə başlayırsan.

Kənd yollarının əksəriyyəti bərbad vəziyyətdədir. Qarlı və yağışlı vaxtlarda bu yollar kənd sakinləri üçün keçilməz olur.

Qazaxda olarkən yolumuz rayonun ən çox sakini olan Daş

Daş Salahlının sakinləri işsizliklə yanaşı, 10 minə yaxın əhalisi olan kəndin yollarının bərbad vəziyyətdə olmasından da şikayətçidirlər. Rayon mərkəzinə diqqət ayrılsa da, Daş Salahlının yollarına 10 ildən çoxdur ki, əncam çəkilmir. Sakinlər icra hakimiyyətinin problemlərin həllinə göstərdiyi münasibətdən şikayətlənirlər. Narazı sakinlər soyuq havalarda təbii qazın kəsilməsindən də gileylənirlər. Soyuq və qarlı günlərdə kəndə qaz fasilələrlə verilib. Elektrik enerjisinin verilməsindən narazı olmayan kənd sakinlərinin digər bir problemi isə içməli su ilə bağlıdır. Kənd ərazisində olan içməli su yerli camaatın tələbatını ödəmir. Gün ərzində kənd yollarında əllərində içməli su daşıyan qadınları, uşaqları, yaşlıları görmək mümkündür. Rayonun Quşçu Ayrım, Məzəm, Fərəhli, Cəfərli, Bala Cəfərli, Abbasbəyli kimi kəndləri də susuzluq və təbii qazın verilişi ilə bağlı problemlərlə üz-üzədir.

Ümumiyyətlə, Qazaxda gördüklərimizdən, müşahidə etdiklərimizdən sonra rayondakı vəziyyəti bir cümlə ilə belə izah edə bilərik: Qazaxlılar işsizlikdən, sosial yardımın verilməməsindən, yolsuzluq və susuzluqdan əziyyət çəkir...

❑ **İlkin MURADOV**
**Məhəmməd TÜRKMƏN**
**Bakı-Qazax-Bakı**

YENİ MÜSAVAT
N 23 (6344) 1 fevral 2016

**Yanvarın 31-dən etibarən Azərbaycan ərazisində qeyri-rəsmi təqvimə görə qışın oğlan çağı - kiçik çillə başlayıb. Daha mülayim olan böyük çillədən fərqli olaraq 20 gün davam edən kiçik çillə adətən sərt şaxtalarla müşahidə olunur.**

# Kiçik çillə - "qışın oğlan çağı" başladı...

## Kiçik çillə fevralın 20-dək davam edəcək



Həmişə sərt soyuğuna görə kiçik çillə mifologiyada amansız, həyatı donduran, qorxulu bir qüvvə kimi təsvir olunur. Bir çox hallarda "qış"ın əvəzedicisi kimi işlənən "çillə" sözü dərd-bəla, ağrı-acı, çətinlik, müşkül anlamındadır. Yaşı min illərə çatan bu mərasim həm də insanları qışda keçən mülayim havaya aldanmamağa çağırır. El arasında "qışın oğlan çağı" adlandırılan bu dövrdə havaların mütləq kəskin şəkildə soyuyur. Əski inanclara görə, böyük çillə ilə kiçik çillə qışın tən ortasında görüşür. Mövsüm və mərasim adətlərini ifadə edən folklor mətnlərindən birində bu cür maraqlı bir qeyd edilir: "Kiçik çillə böyük çillədən soruşur, nə gördün? Böyük deyir ki, dolu samanlıqlar, yağ küpələri, qollu-biləkli qarılar təndirə çörək yapırdı. Kiçik deyir, eybi yox, ömrüm 20 gün də olsa, mən o qarıları külfədən soxub bacadan çıxaracağam. Dolu samanlıq və yağ küplərini isə tükədəcəm. Ömrüm az, dalım yaz..."

Ümumiyyətlə, qeyri-rəsmi təqvimə görə, qış fəsli 3 yerə - böyük çillə, kiçik çillə və Boz aya bölünür. Böyük çillə 40 gün, kiçik çillə isə 20 gün çəkir. Dekabrın 21-dən yanvarın 30-dək böyük çillə, yanvarın 31-dən fevralın 19-dək kiçik çillə davam edir. Kiçik çillənin başa çatması ilə havalar tədricən isinməyə doğru gedəcək. Kiçik çillədən sonra Novruzadək qalan 30 gün, daha dəqiq desək, fevralın 20-dən martın 20-dək olan dövr boz ay adlanır. Boz ay isə martın 20-də başa çatacaq və çərşənbələr gələcək. Elə hava da çərşənbələrə görə dəyişəcək - Su, Od, Yel və Torpaq.

Qış yerini yaza təhvil verən zaman yandırılan tonqala el arasında "çillə qovan tonqal" deyilməsi və Novruzqabağı keçirilən mərasimlərə "çillə çıxartma", "çillə kəsmə" adı verilməsi də qışın ağrı-acı, dərd-bəla, sıxıntı kimi "çillə" obrazında folklor biçimi qazandığını göstərir. Yer oxunun ekvator müstəvisinə meylliliyi gecə və gündüzün qeyri-bərabər olmasına, fəsillərin yaranmasına səbəb olub. Yerin Günəş ətrafında hərəkəti ilə bağlı olaraq illər, fəsillər əmələ gəlir. İstilik, işıqlanma və iqlim qurşaqları yaranır. Canlıların həyatında böyük dəyişikliklər baş verir.

İnanclara görə, kiçik çillə yarı olanda, yəni haradasa fevralın 8-10-u arası Xıdır Nəbi mərasimi keçirilir. Bu mərasim xalqın min illik ənənələrində yaşadılır. Bu bayram Azərbaycanda Xızır Nəbi bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq (Hz. Əli) şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır. İnanca görə, bu mərasim hər evdə, hər ailədə qeyd olunmalı, məclis qurulmalı, süfrələr açılmalıdır. Xıdır, yaxud Xızır mifoloji düşüncədə əbədiyyət bəxş edən dirilik suyunu tapıb, içdiyinə görə peyğəmbərlik səviyyəsinə yüksələn "Nəbi" kimi qəbul edilib və xalqın şifahi yaddaşında müsbət, xeyirxah, insana uğur gətirən bir obraz kimi əks olunur.

"Xıdır Nəbi" mərasimi üç gün davam edir. Mərasimin birinci günü Xan Xıdır, ikinci günü Rəiyyət Xıdır, üçüncü günü isə Çillə Xıdır kimi qeyd olunur. Bu mərasim erkən əkinçilik təsəvvürləri ilə bağlı yaranan Novruzqabağı mərasimlərə daxildir və əsas amalı, məqsədi insanların qışdan salamat çıxmasını, üzləşdikləri çətinliklərə sinə gəlməsini, yazın gəlişini gözləməsini əks etdirməkdir.

❑ **Günel MANAFLI**

# Pul almayacaqsansa... niyə gəlmisən?



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

**Adamın heyrət dolu üz ifadəsi hələ də yadımdan çıxmır. El arasında deyilən kimi, matı-qutu qurumuşdu. Niyə gəlib, nə istəyir, bu suallar nə üçündür... beynində həmin anda nə qədər tülkü dolaşırdı, bir özü bilir, bir Allahı. Sanki dünyanın səkkizinci möcüzəsi ilə qarşılaşmışdı. Söhbət uzandıqca vəziyyət daha da dramatikləşirdi. Elə bil göy yerə enmişdi, altında qalmışdı adam. "Niyə"lərin əlində yesir idi rəsmən...**

Bu cür şairanə girişə aldanmayın. Əslində qeyri-adi heç nə baş verməmişdi. Ölkənin böyük bir qəzetinin sıradan bir müxbiri reportaj məqsədilə bir məkana gəlmişdi. Azərbaycanda son ayların tendensiyasını - toy biznesi ölür, yas biznesi çiçəklənir - araşdırmaq üçün sözügedən sektora aid məkanlardan reportaj hazırlayırdı. Məlum, durumu da anlatmaq üçün ya məkanın sahibi, ya da administratoru ilə danışmalısan. Sıradan bir jurnalistika olayı. Qəzetçiliyə dünən başlamış bir növcavanın normal ölkədə asanlıqla hazırlaya biləcəyi bir yazı. Filankəs dedi, sualları cavabladı, biz də baxdıq, çəkdik, gördük... Bu qədər...

Amma gəl gör ki, canım məmləkətimdə bu, çətindən çətin bir işdir. Bəndəniz ötən həftə bunu bütün iliklərinə qədər hiss etdi. Dediyim kimi, bir neçə məkana üz tutdum, mənzərəni yerində görmək üçün fotolar çəkdim, adamlarla danışdım və sair. Amma çoxdan unutduğum o Azərbaycan gerçəyi qarşıma çıxdı. İnsanlar bəzi üzdəniraq "həmkarlar" ucbatından kimliyimizi, təyinatımızı unutmuşdu. Normal sual verənə az qala "sənə əjdaha lazımdır" deyə reaksiya verməkləri bir tərəfə... İsrar edəndə isə təəccüblənir, gözlərini yekə-yekə açıb baxır.... ən canalıcı zərbəni isə sağollaşanda vurmağa çalışırdılar. Bəli, sən adamdan işinin gərəyi açıqlama alırsan, foto çəkirsən, ədəb-ərkanla sağollaşıb getmək istəyirsən. Bu yerdə yekəpər kişilər qatlanıb-atlanıb, ciblərindən pul çıxarırlar: a bala, al bunu, gedəndə bir çay içərsən deyə... Həmin andaca, ordaca yerin dibinə girmək istəyirsən. Onların yerinə, onların əvəzinə. Sənin adını bu cür qaralayanların ucbatından. Hətta ən əziz adamının minnətli çörəyini yeməyən insanlar üçün bu, ağır bir söyüşdür, bilənlər bilir. Üstəgəl sənin rədd cavabına verdikləri qızıl qırmızı reaksiya: "Bə nə gəlmişdinn?"

Və bu ağır zərbədən sonra insan yumurtanın cücədən, ya cücənin yumurtadan... çıxması barədə dərinu düşüncələrə qərq olur. Bu ölkədə rüşvətxorluğun yayılmasında kimin rolu daha çoxdur? Dilənçi kimi qapı-qapı gəzən reket jurnalistlər, ya gələn abırlı qələm adamına normal müsahibə vermək əvəzinə əlini cibinə salan işbazlar? Bu ənənənin kökünü kim dərinləşdirir? Gələn rüşvətxor jurnalistə "rədd ol" deyə bilməməyin səbəbi harda gizlənib? Heç kəs mənə "həminin balası var, hamı bir-birini dolandırmalıdır" nağılını təkrarlamasın, bu fəlsəfəyə qarnımız toxdur. Adam dolandırmağa qalsa, yollarda xəstə balasını da qucağına alıb, pul dilənən o qədər adam var ki. Onları da dolandırsınlar, bir zəhmət.

Əslində problem ondadır ki, rüşvət verən də alan qədər suçludur. Haqqında nə yazılacağı onu çox qorxutmur. Məlum, axırıncı dəfə əlinə nə zaman qəzet aldığını özü də xatırlamır. Sadəcə, onun işində də qüsur (lar) var, həm də bəs deyincə. O qüsurlarınsa heç kəsin oxumadığı reket qəzetlərdə çıxmasından daha çox, bunun həmin jurnalistciklər tərəfindən daha yuxarıdakı şəxslərə çatdırılmasıdır. Ona görə soruşuram: Kim daha çox günahkardır? Birinci daşı o atsın...

Qatlanıb cibindən pul çıxaran dayının sonda verməyə çalışdığı "həyat dərsi"ni də sizinlə paylaşım, birgə gülək. Dedi ki, qanunsuz villaların yiyələrindən yazırsız ha. Birincisi, onların heç biri qanunsuz ola bilməz, çünki bu ölkədə yerə bir mıx vuranda da icazəsini almalısan. İkincisi isə işdi, sabah o qanunsuz villanın yiyəsi öz oğluna sənin qızını almaq istəsə, evinə elçi gəlsə, onun barəsində yazdığın yazılara görə utanmayacaqsanmı? Odur ki, yazma...

Bu azərbaycanlı məntiqinin qarşısında dünyanın heç bir gerçəyi dayana bilməz. Sonra da deyirsiz, antikorrupsiya, mübarizə, rüşvətin kökünün kəsilməsi... Bir azərbaycanlını utopik, gələcək qudasının gözünə necə baxacağı daha çox maraqlandırır, nəinki bütün bu sadaladıqlarım...

# Şou-biznes əhli sosial şəbəkələrdəki təhqirlərdən danışdı

## Nadir Qafarzadə: "Bizim təhqirə yox, tərifə ehtiyacımız var..."

**Son zamanlar sənət adamları sosial şəbəkədə izləyicilərini təhqir etməsi ilə tez-tez gündəmə gəlir. Sonuncu dəfə Xalq artisti Aygün Kazımova doğum günündə geyindiyi qısa libasa görə onu tənqid edənləri təhqir etmişdi.**



Əməkdar artist Röya Ayxan, İzzət Bağırov, Xatirə İslam da İnstagram səhifəsində insanları təhqir etməsi ilə gündəmə gələn tanınmışlardandır. Bəs yerli şou-biznes əhli həmkarlarının bu addımını necə qiymətləndirir?

Musavat.com sənət adamları arasında bununla bağlı sorğu keçirib. Onlardan tənqid və təhqirlərə söyüşlə cavab verməyin nə dərəcədə doğru olub-olmadığı barədə fikirlərini öyrənib.

Xanəndə Gülay Zeynallı sosial şəbəkədə heç vaxt ona təhqiramiz sözlər yazılmadığını bildirdi: "Mənim İnstagram səhifəmi 85 min adam izləyir. Profilim bağlıdır, izləyiciləri seçib qəbul edirəm. 85 min insanın 500-ü mənim dost-tanışımdır. Heç vaxt kimsənin mənə təhqir yazdığını görməmişəm. Bu yaxınlarda Facebook səhifəsində bir xanım mənim haqqımda artıq sözlər yazmışdı. Həyat yoldaşım onun ünvanını tapıb evinə getdi, məsələni aydınlaşdırdı. Monitor qarşısında kimsə şirə dönə bilər. Məni təhqir etsələr, heç vaxt söyüşlə cavab verərəm, özümü o adamın səviyyəsinə salmaram, bloka ataram. Qayda-qanun var, təhqir edən şəxsə öz səviyyəmizə uyğun cavab verərəm".

Müğənni Nadir Qafarzadə isə insanların sənət adamlarını təhqir etməsini qəbul etmədiyini dedi: "Hər kəs özünə görə şəxsiyyətdir, kiminsə kimisə təhqir etməyə haqqı yoxdur. Məni bir söyənə beş cavabını verərəm. Bizi söyən insanlar xalqdırsa, bəs müğənnilər xalq deyil? Biz bu ölkənin mədəniyyətinə, incəsənətinə xidmət edən insanlarıq. Biz Azərbaycanı hər yerdə təmsil edirik, təhqir olunmamalıyıq. Bizim tərifə ehtiyacımız var. Bizi təhqir edənlərin özləri təhqirə layiqdir. Bu ölkədə qanun var. Ən yaxşı yol təhqir edənlər barədə hüquq-mühafizə orqanlarına müraciət etməkdir".

Rəqqasə Fatimə Fətəliyeva isə qeyd etdi ki, onu təhqir edənləri bloka atmaqla kifayətlənir: "Biz sənət adamları tamaşaçılar üçün bir nümunəyik. İstər televiziyada, istərsə də sosial şəbəkələrdə tamaşaçıya normal cavab verməliyik, təhqirə keçmədən bir-birimizə hörmətlə yanaşmalıyıq. Son zamanlarda çaşqınlıq yaranıb. Bəzən el şənliklərində biri mənimlə şəkil çəkdirib profilinə qoyur. Mənim səhifəmdə yazır ki, "Fatimə xanım, necə də gözəlsiniz". Başqa müğənninin səhifəsində mənimlə olan fotosu ilə yazır ki, "Səndən zəhləm gedir". Tamaşaçılar da qəribə olub. Bir var tənqid, biri də var təhqir. Tənqidə dözmək olur, təhqirə isə dözmək mümkünsüzdür. Bu insanların səviyyəsinə enmək lazım deyil, onları bloka atıram. Ya da həmin adamlara mesaj bölməsində cavabını verirəm".

❑ **Könül İBRAHİM**

# "Sədaqəti Türkiyəyə bacısı göndərib"

## Xalq artisti Rafael Dadaşov: "Mən Sədaqətin əmisi oğluyam, onun evlilik proqramına qatılması barədə niyə danışmalıyam?"

**Xalq artisti Rafael Dadaşovun keçmiş həyat yoldaşı, Brilliant Dadaşovanın bacısı, aktrisa Sədaqət Dadaşova Türkiyənin "Fox" telekanalında yayımlanan "Zuhal Topalla İzdivac" proqramına qatılıb. Oqtay adlı kişi üçün proqrama qonaq olan 64 yaşlı aktrisa müraciət etdiyi bəy barədə fikirlərini bölüşüb:**



"Gördüm ki, yaxşı və kübar adamdır. Bəyəndiyim üçün proqrama qatılmağa qərar verdim. Oqtay bəyin anası ilə yaşadığını bilirəm. Razılaşsaq, İstanbulda onlarla yaşaya bilərəm".

S. Dadaşovanın evlilik proqramında iştirak etməsi isə sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. İnsanlar aktrisanı 64 yaşında atdığı addıma görə tənqid ediblər.

Sənətçinin qızı Səidə Dadaşova axşam.az saytına açıqlamasında anasının işlərinə qarışmadığını bildirib: "Anamın evlilik proqramına qatılmasından xəbərim yoxdur. Həm də ki, o, mənim anamdır, mənə məsləhət verəndir. Mən valideynlərimə məsləhət verən deyiləm, onların işinə qarışmıram".

Musavat.com S. Dadaşovanın evlilik proqramına qatılması barədə keçmiş həyat yoldaşı Rafael Dadaşovun fikirlərini öyrənməyə çalışıb. Xalq artisti saytımıza açıqlamasında bildirib ki, məsələ ilə bağlı danışmaq istəmir: "O boyda tanınmış Brilliant bacısı var, ona zəng edin. Məndən niyə soruşursunuz? Mən Sədaqətin əmisi oğluyam, evlilik proqramına qatılması barədə niyə danışmalıyam? Bu barədə bacısı danışsın. Onu Türkiyəyə bacısı göndərib".

Qeyd edək ki, S. Dadaşova "Bizim küçənin oğlanları" (1973), "Ömrün səhifələri" (1974), "Çarvadarların izi ilə" (1974), "Yaşıl eynəkli adam (1987), "Yeddi oğuldan biri" (2007) filmlərində rol alıb. Sədaqət-Rafael cütlüyünün Səidə, Leyla və Ayxan adlı üç övladı var.

❑ Könül İBRAHİM


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





## Qonşu Gürcüstanda donuz qripindən ölənlərin sayı 7-yə çatdı

**Gürcüstanın paytaxtı Tbilisidə donuz qripinin yaratdığı pnevmoniyadan daha bir nəfər ölüb. Bu barədə Gürcüstan İctimai Sağlamlığa Nəzarət Milli Mərkəzinə istinadən İnterfax agentliyi məlumat yayıb.**

Mərkəzin məlumatına görə, bu, ölkədə "H1N1" virusundan 7-ci ölüm faktıdır.

Ümumilikdə, Gürcüstanda qış mövsümündə vətəndaşlar arasında donuz qripinə 186 yoluxma halı qeydə alınıb.

Əlavə edək ki, Azərbaycana qonşu olan Türkiyə, Rusiya və Ermənistanda da donuz qripindən ölüm faktları qeydə alınıb.


**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**




## Hansı məşhurlar musiqi alətində ifa edə bilir?

**Bu günlərdə tanınmış politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a müsahibə verərkən gitarada maraqlı ifa etməsi, oxuması ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Politoloq müsahibəsində bildirib ki, tələbəlik illərində, Azərbaycan Dövlət Universitetində təhsil alarkən rok-caz qrupunun üzvü olub, orda solo gitarada ifa edib. H.Hacızadə həmçinin pianinoda da ifalar edir.**

Maraqlıdır, daha hansı tanınmış siyasətçilər musiqi alətlərində ifa etməyi bacarır? Bununla bağlı kiçik araşdırma apardıq.

Hər kəsə məlumdur ki, hazırda Azərbaycanın Rusiyadakı səfiri olan Polad Bülbüloğlu istedadlı bəstəkar olmaqla yanaşı pianinoda çox gözəl ifa etmək qabiliyyətinə malikdir. Məşhur xanəndə Bülbülün oğlu olan Polad Məmmədov Bülbüloğlu çox zaman sevilən mahnılarını ifa edərkən pianinoda özünü müşayiət edib. O, ötən əsrin 60-ci illərində ADK-da Qara Qarayevin sinfində təhsil alıb.

Daha bir siyasətçi Kəmaləddin Heydərov da pianinoda ifa edə bilir. Azərbaycan Respublikasının fövqəladə hallar naziri olan K.Heydərov eyni zamanda tanınmış bəstəkardır. O, mahnılarını "Kamal" imzası ilə bəstələyir. Nazir bu günədək bir neçə hit mahnının müəllifidir. Müğənni Nəsibə Allahverdiyevanın ifa etdiyi "Nigaranam" mahnısı bunlardan ən məşhurudur.

Müsavat Partiyasının başqanı Arif Hacılı isə gitarada çalmağı bacarır. Partiya sədri hələ yeniyetməlik çağlarından musiqi ilə məşğul olub. Hərdən indi də boş vaxtlarında sevimli gitarasını səsləndirir.

Deputat Ziyad Səmədzadənin gözəl tarzən olması çoxdan cəmiyyətə məlumdur. O, hələ uşaqlıqdan bu sənətə maraq göstərib. Lakin sonradan tale onu incəsənətdən uzaqlaşdırıb. Bununla belə Ziyad Səmədzadənin tarla unudulmaz xatirələri var. Professor 2014-cü ildə AzTV-nin "Ovqat" verilişində ansamblın müşayiəti ilə muğam ifa edib. Onu da əlavə edək ki, tanınmış bəstəkar Aygün Səmədzadə deputatın böyük qızıdır.

Əldə etdiyimiz məlumata görə dini ekspert Nəriman Qasımoğlu da tarda gözəl ifalar edir.

"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə gitarada ifa etməyi çox sevir. O, ötən əsrin 80-ci illərində musiqi ansamblının rəhbəri olub. Həmçinin M.Əliyev bir neçə mahnıların müəllifidir.

Hüquq müdafiəçisi Novella Cəfəroğlunun da uşaqlıqdan musiqiyə marağı olub. Məlumata görə, N.Cəfəroğlu pianinoda mahir ifa edə bilir.

❑ Xalidə GƏRAY


**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

Yeni Müsavat
N 23 (6344) 1 fevral 2016

**Ən təcrübəsiz sürücünün belə bu mövzu ilə bağlı bir fikri var. Ölkədə və dünyada baş verən yol qəzalarının sayı get-gedə artır. Bunu yolda maşınlarının sayının, onunla paralel olaraq, təcrübəsiz sürücülərin artması ilə izah edənlər də var. Amma reallıq təsəvvürlərin əksinə cərəyan edir.**

# Avtoqəzaların 90 faizi yoxsul ölkələrdə baş verir

## Azərbaycan yolları niyə son illər qan gölünə dönüb?



Ümumdünya Səhiyyə Təşkilatının bildirdiyinə görə, hər il dünyada yol qəzası səbəbindən 1.25 milyona qədər insan dünyasını dəyişir ki, bunun qarşısını almaq mümkündür.

Dünyanın 180 ölkəsindən alınan məlumatlara əsasən hazırlanan hesabatda deyilir ki, yol qəzası səbəbi ilə ölüm halları stabil xarakter alıb. Digər tərəfdən isə dünyada əhalinin artımının avtomobillərin də artmasına yol açdığının yaxşı hal olduğu deyilir. Lakin avtomobil qəzaları nəticəsində 15-dən 29 yaşlar arasında gənclərin ölməsi xüsusi qeyd edilir. Təşkilatın hesabatında eləcə də, yoxsul dövlətlərlə zəngin dövlətlər arasında yol hərəkəti təhlükəsizliyi və ölüm hallarının fərqinin böyük olduğu deyilir. Hesabatda deyilir ki, avtomobillərin yalnız 54 faizinin bu ölkələrə aid olmasına baxmayaraq, qəzaların 90 faizi dünyanın yoxsul və orta gəlirli ölkələrində baş verir.

Ümumdünya Səhiyyə Təşkilatından Etin Kroqun dediyinə görə, yol qəzaları səbəbindən ölüm hallarının çoxu Afrika və Yaxın Şərq ölkələrinin payına düşür: "Dünya avtomobillərinin yalnız 2 faizi Afrikadadır, lakin yol qəzası səbəbindən ölənlərin sayına görə Afrika birinci yerdədir. İsveç, Böyük Britaniya və Hollandiya kimi ölkələrdə isə bir sıra tədbirlər həyata keçirməklə, son 10 ildə yol qəzası səbəbindən ölüm hadisələri 80 faizdən çox azalıb. Biz sürətdən, spirtli içki içərək avtomobil sürməkdən, təhlükəsizlik kəmərindən, motosiklet sürərkən dəbilqədən istifadə etməkdən və avtomobillərdə uşaqlar üçün ləvazimatı nəzərdə tuturuq."

Etin Kroq son 3 ildə 17 dövlətin yol təhlükəsizliyi qanunlarına riayət etməklə böyük nailiyyət qazandığını deyir. O, yol qəzasından sonra təcili yardımın da həyatların xilasında böyük rol oynadığını bildirib. Hesabatda deyilir ki, velosiped sürücüləri və piyadalar arasında ölüm halları 26 faizdən çoxdur ki, bunun 33 faizi Afrikanın payına düşür. Hesabatda dünyada satılan avtomobillərin 80 faizinin təhlükəsizlik standartlarına uyğun gəlmədiyi də bildirilir.

### Hər il 1 milyon 250 min insan yol qəzasında ölür

Dünya Sağlamlıq Təşkilatının (WHO) açıqladığı "Qlobal vəziyyət" hesabatına görə, hər il 1 milyon 250 min insan yol qəzasında həyatını itirir. Hesabatda, son üç ildə 79 ölkədə yol qəzasında ölənlərin sayının azaldığı, 68 ölkədə isə bu sayın artdığı göstərilir.

Ölüm sıralamasında yol qəzaları 8-ci yerdə olsa da, yeniyetmələr və qismən böyüklər bu sıralamada birincidir. Hesabatda yol qəzalarında ölüm sayına görə Avropanın sonuncu, Afrika qitəsinin isə birinci yerdə olduğu öz əksini tapıb.

21 noyabr Dünya Yol Qəzaları Qurbanlarının Xatirəsi günüdür. Birləşmiş Millətlər Təşkilatının qərarı ilə bu gün bütün dünyada qeyd edilir...

Azərbaycanda hər il təxminən 3500-dən çox yol nəqliyyat hadisəsi qeydə alınır. Bu qəzalarda hər il 1000-dən çox insan dünyasını dəyişir, 2000-ə yaxın insan isə müxtəlif dərəcəli xəsarətlər alır.

I Qarabağ müharibəsində Azərbaycan Ordusu 14 min itki vermişdisə, ötən bu müddət ərzində avtomobil qəzaları nəticəsində isə ümumilikdə Azərbaycanda 30 minə yaxın insan tələfatı olduğu müəyyən olmuşdur. Bu fakt göstərir ki, ölkəmiz kimi, nəqliyyatımız da müharibə şəraitindədir.

Rəsmi statistikaya əsasən, hər il Azərbaycanda 1000 nəfərə yaxın insan yol nəqliyyat hadisələrinin qurbanına çevrilir. Belə ki, 2010-cu ildə Azərbaycanda baş verən yol qəzalarında 925 nəfər həlak olub, 2871 nəfər yaralanıb. 2009-cu il ərzində respublika ərazisində 2792 yol nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 930 nəfər həlak olub, 3044 nəfər yaralanıb. 2008-ci il ərzində isə respublika ərazisində 2970 yol-nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 1052 nəfər həlak olub, 3232 nəfər yaralanıb. Bu ilin 9 ayı ərzindəki statistika belədir: 712 ölü, 2459 yaralı. Hər gün dünyada 3 min nəfərdən çox insan yol qəzalarında ölür. Dünyada yol qəzalarının və bu hadisələrin qurbanlarının sayına görə inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələri xeyli qabaqlayır. Əhalinin sayına düşən yol qəza qurbanlarının sayına görə İran ilk yerdədir...

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəhbəri Fuad Cavadovun mətbuata verdiyi açıqlamalarda qeyd olunur ki, sürücülərin piyada xəttinin tələblərinə əməl etməsində xeyli müsbət dəyişiklik hiss olunur. Lakin piyadalar bir sıra hallarda işıqforun tələblərinə əməl etmir, təyin olunmamış yerlərdən keçirlər ki, bu da qəzalara səbəb olur. Cavadov bildirib ki, Prezident İlham Əliyevin yol qəzalarının səbəblərinin araşdırılması ilə bağlı imzaladığı sərəncamdan irəli gələn məsələlərin icra olunması gündəmdədir, bu istiqamətdə aktiv işlər aparılır.

Yol nişanlarının qurulmasında da nöqsanlar var. Belə ki, yol nişanlarının, əsasən, magistral yollarda ehtiyac olan yerlərdə qurulmasına fikir verilməlidir, çünki yüksək sürətlə hərəkət edən avtomobilin xəbərdar olunmadığı təqdirdə törətmiş olduğu qəza əksər hallarda ölümlə nəticələnir.

Mərkəz rəhbəri qəzaların ölümlə nəticələnməsinin səbəblərindən biri kimi köhnə Rusiya istehsalı olan avtomobillərdən istifadəni qeyd edib: "Əgər bu gün Azərbaycanda avtomobillərin 30 faizi Rusiyanın köhnə istehsallı maşınlarıdırsa, ölümlə nəticələnən qəzaların 50 faizdən çoxu da onların payına düşür".

Cavadov Ekspertiza Mərkəzinin texniki imkanlarının son dövrlərdə təkmilləşdirildiyini qeyd edərək bildirib ki, bu, qəzaların baş vermə səbəblərinin, günahkarın müəyyən olunmasına xeyli yardım edir: "Misal üçün artıq dəqiq müəyyənləşdirmək olur ki, hər hansı bir mübahisəli şəraitdə dönmə nişanı yandırılıb, ya yox".

Cavadovun sözlərinə görə, artıq işıqforun qəza baş verən an hansı işarəni verdiyini də aydınlaşdırmaq mümkündür, həmçinin şəhərdə quraşdırılmış videomüşahidə kameraları da nəqliyyat hadisəsinin ekspertizası işinə kömək göstərir.

### Yol qəzasının əsas səbəbi sürət həddi deyilmiş...

Hər zaman qəzaların başlıca səbəbi sürət həddi ilə əlaqələndirilir. Amma araşdırmalarımız zamanı məlum olub ki, əsas səbəb heç də bu deyil. Sürət həddini aşma nadir hallarda qəzalara səbəb olur. Əsasən yol-hərəkət qaydalarının pozulması, manevrlərin düzgün edilməməsi qəzalara səbəb olur. Son zamanlar qəza hadisələrinin əksəriyyətində yük maşınları, avtobuslar, taksilər iştirak edirlər. Buna həmin maşınların sürücülərinin yuxusuz qalması, gün ərzində dəfələrlə eyni istiqamətdə maşın sürməsi səbəb olur.

Yolların tez-tez təmir olunması, bunun yaratdığı tıxaclar da qəzaların baş verməsinə gətirib çıxarır. Bu da müəyyən qaydada tənzimlənməlidir. Tələblər sırasında o da səsləndirilir ki, qəzaların qarşısının alınması üçün xüsusilə Yol Patrul Xidmətinin işi təkmilləşdirilməlidir. Məsələn, Bakı şəhərində yol polisinin sayı azaldılmalı, bunun əvəzinə qəzaların daha çox olduğu Mərkəzi Magistral Yollarda onların sayı artırılmalıdır.

2003-cü ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası bu məsələni ilk dəfə qaldıraraq bir sıra qətnamələr, o cümlədən "Qlobal yol hərəkəti təhlükəsizliyinin yaxşılaşdırılması" qətnaməsini qəbul edib. Bununla da Ümumdünya Səhiyyə Təşkilatını (ÜST) bu sahədə əməkdaşlığa və BMT tərəfindən aparılan yol hərəkəti təhlükəsizliyi tədbirlərinin əlaqələndirilməsinə dəvət edib. 2005-ci ildə BMT-nin Baş Assambleyası hər il noyabrın üçüncü bazar gününün Yol-nəqliyyat hadisələri qurbanlarının Ümumdünya Anım Günü kimi qeyd olunmasını qərara alıb və 23-29 aprel 2007-ci il tarixinin BMT-nin ilk Qlobal yol hərəkəti təhlükəsizliyi həftəsi kimi keçirilməsini elan edib.

Son olaraq cəmiyyətdə yaranan bir stereotipi də unutmayaq. Kişi sürücülərin tez-tez təkrarlamağı sevdiyi bir söhbətə görə, Azərbaycanda qəzaların baş verməsinin əsas səbəbkarı qadın sürücülərdir. Əslində isə... Statistikaya görə, Azərbaycanda qadın sürücülər xırda qəza və yol pozuntusu hallarına kişilərə nisbətən daha çox yol versələr də, ağır yol-nəqliyyat hadisələrini daha az törədirlər. DİN Baş Dövlət Yol Polis İdarəsindən verilən məlumatda bildirilir ki, Azərbaycanda qadın sürücülər daha çox yüngül toqquşmalara düşürlər. Ağır qəzalarda hələ də kişilər liderlik edirlər. Kişi sürücülər ən çox sürət həddini aşmağa və ötmə qaydalarını pozmağa meyllidirlər. Qadınlar isə manevr və sıranı dəyişərkən xətaya yol verirlər. Bununla belə, 2009-cu il ərzində Azərbaycanda 2530 qadın sürücü törətdikləri yol-hərəkət pozuntularına görə məsuliyyətə cəlb olunub. 74 qadın sürücü avtomobili sərxoş, 56-sı isə sürücülük hüququ olmadan idarə etdiyi üçün məsuliyyətə cəlb edilib. Dövlət Yol Polisindən bildirilib ki, bu göstəricilər 2008-ci illə müqayisədə 2 dəfə artıb.

STOP: Azərbaycanda 30 mindən artıq qadının sürücülük vəsiqəsi var. Onlardan 20 minə yaxını nəqliyyat vasitəsini idarə edir. 10 minə yaxın qadının sürücülük vəsiqəsi olsa da, avtomobil sürmür. Sürücülük vəsiqəsi olan qadınların 26 minə yaxını Bakı şəhərinin, qalanları isə respublikanın digər rayonlarının sakinləridir.

Bu arada DYP-dən onu da öyrəndik ki, qadın sürücülərin yol verdiyi pozuntular sırasında - avtomobili idarə edərkən kəmər taxmama, manevr edərkən və sağa-sola dönərkən işıq siqnallarından istifadə etməmə, yolayrıcı keçmə qaydalarını pozma, piyadalara yol verməmə kimi xətalar üstünlük təşkil edir.

Əvvəllər yol polisi əməkdaşları qadın sürücülər tərəfindən törədilən kiçik qayda pozuntularına göz yumurdular və xanım sürücülərə xəbərdarlıqla kifayətlənirdilər. Lakin ilbəil qadın sürücülərin və onlar tərəfindən yol verilən pozuntuların sayının artması onlara qarşı ciddi tədbirlər görülməsini zəruri edir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 23 (6344) 1 fevral 2016



## Balığını 380 avroya əməliyyat etdirdi

Şərqi İngiltərədə yeddi santimetr uzunluğu olan akvarium balığı əməliyyat edilib. Ona yemək borusu tıxanması ilə bağlı ciddi diaqnoz qoyulub. Bir saata yaxın davam edən əməliyyat zamanı balığa narkoz verilib. Öz sevimli balığı üçün tibbi kömək istəyən yerli sakinlərdən biri olub. Balığın sahibi əməliyyat üçün 380 avro ödəyib. Həkim Fey Bettel isə əməliyyatla bağlı deyib ki, hər bir heyvan sahibi o heyvan üçün məsuliyyət daşıyır və onun sağlığı üçün lazım gələndə bu cür fədakarlıqlar etməlidir.



## 24 il işə gəlmədiyi üçün qovuldu

Hindistanda İctimai İşlər Departamentində çalışan bir nəfər 24 ildir işə gəlmədiyi üçün işdən qovulub. Bu barədə Lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. A.K.Varma adlı elektrotexnik 1990-cı ilin dekabrında məzuniyyətə gedib və həmin vaxtdan etibarən qayıtmayıb. O, 24 ildən sonra da məzuniyyətinin uzadılmasını xahiş edib, amma onun xahişi yerinə yetirilməyib.

Maraqlıdır ki, onun işdən bu cür məsuliyyətsiz yayınması 1992-ci ildə, yəni məzuniyyətindən 2 il sonra aşkarlanıb. Bununla belə onun işdən çıxarılması üçün 22 il gözləyiblər. Sözügedən instansiyadan bildiriblər ki, gecikmənin səbəbi bürokratik əngəllər olub. Bu arada Hindistanın bürokratiya sistemi 2012-ci ildə Asiyanın ən pis bürokratiya sistemi adlandırılıb. Bu sistemin işçiləri özlərinin süründürməçiliyi, işdəki məsuliyyətsizliyi ilə ad çıxarıblar.

# Bir göbələyə 50 min dollar ödədilər

**İtaliya bölgəsi olan Umbriyada tapılan trüfel dünyanı heyrətə salıb. Onun çəkisi cəmi 1.89 kiloqram olsa da, başlanğıc qiyməti 50 min dollara çatıb. Ağ trüfel sözügedən bölgədə oktyabr-dekabr aylarında üzə çıxır. Bu göbələyi ancaq xüsusi təlim keçmiş itlər tapa bilir.**



Lenta.ru saytı yazıb ki, trüfel hər zaman astronomik məbləği ilə diqqət çəkib. Belə ki, 2013-cü ildə bir cüt trüfel 90 min dollara satılıb. 2010-cu ildə isə iki ağ rəngli trüfel İtaliyada keçirilən bir auksionda 330 min dollara satılıb. Eyni ildə İtaliyada keçirilən trüfel festivalında 900 qramlıq göbələk 105 min dollara alıcı tapıb.

# Selfinin xəstəlik olduğu təsdiqləndi

**Amerikan Psixoloqlar Dərnəyi rəsmi olaraq "selfie"nin və bu şəkilləri sosial şəbəkədə paylaşmağın ruhi pozğunluq əlaməti olduğunu açıqlayıb. Dərnək Çikaqoda keçirilən illik idarə heyətinin konfransında bu psixi pozğunluğu "selfitis" olaraq adlandırıb. Psixoloqlar şəkilini çəkib sosial şəbəkədə paylaşmağın obsessiv kompulsiv bir meyil olduğunu və bunu şəxsin özünə inamsızlığını aradan qaldırmağın bir yolu olaraq göstərib.**

Bu ruhi pozğunluğun 3 səviyyəsi olduğu bildirilib:

**1.** "Borderline selfitis": (Bu xəstəliyin sərhədində olmaq) - Şəxsin öz şəkilini gündə ən az üç dəfə çəkməsi, amma sosial şəbəkədə paylaşmaması;

**2.** "Acute selfitis": (Bu xəstəliyin irəliləməsi) - Şəxsin öz şəkilini gündə ən az üç dəfə çəkməsi və hər birini gündə 3 dəfə sosial şəbəkədə paylaşması;

**3.** "Chronic selfitis": (Xəstəliyin xroniki hal alması) - Nəzarət edilə bilməyəcək dərəcədə şəxsin öz şəkilini gecə-gündüz ard-arda çəkməsi və gündə altı dəfədən çox sosial şəbəkədə paylaşması.

Psixoloqlar bu xəstəliyin hələ müalicəsi olmadığını, lakin idrak davranış terapiyası ilə müvəqqəti bir müalicə edilə biləcəyini vurğulayıblar.





## Çox işləyən adam alkoqolizmə meyil edir

**Alimlərin beynəlxalq araşdırma qrupu alkoqol istifadəsi və iş saatının uzunluğu arasında əlaqəni müəyyən etmək üçün tarixin ən böyük araşdırmasını aparıb. Problem üzrə 61 tədqiqatda 14 ölkədən 330 min nəfər iştirak edib. Tədqiqatlar normadan çox işləyən adamların alkoqola daha meylli olduğu faktını ortaya çıxarıb. Çünki əlavə iş insanda depressiya, stress, yuxu ilə bağlı problem yaradır. Alkoqol isə belə mənfi effektlərdən uzaqlaşmağa kömək edir.**

Avropa Birliyində standart iş müddəti həftədə 40 saatdır. Əgər işçinin norması 48 saata çatırsa, bu içilən spirtli içkilərin miqdarını 11% artırır. 49 saatdan yuxarı 13% artım müşahidə olunur. Depressiya və yorğunluq nəticəsində yaranana içki içmək istəyi kişilər üçün daha xarakterikdir, nəinki qadınlar. Araşdırma göstərir ki, bu coğrafiyadan, insanların iqtisadi, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eynidir.




**QOÇ** - İstər qarşılıqlı münasibətlərdə, istərsə də iş prinsipində nailiyyətləriniz arta bilər. Amma axşama doğru bəzi bədxahlar əsəblərinizi tarıma çəkə bilər. Odur ki, sərt reaksiya verməməlisiniz.

**BUĞA** - Saat 11-15 aralığında yeni simalarla görüşləriniz, uğurlu sövdələşmələriniz gözlənilir. Nəticənin hədsiz dərəcədə uğurlu olmasını nəzərə alıb proqnozumuzun reallaşmasına çalışın. Hər mənada aktiv olun.

**ƏKİZLƏR** - Günün birinci yarısını müəyyən qədər gərginlik içərisində başa vura bilərsiniz. Xüsusən də fəaliyyət zəminində bəzi xoşagəlməzliklər mümkündür. Amma hər halda tədbirli olmalısınız.

**XƏRÇƏNG** - Qarşıda duran bir ayın perspektivlərindən yararlanmaq üçün konkret addımlar atmağa başlayın. Xırda məişət problemlərinə, eyni zamanda dedi-qoduya əbəs yerə vaxt itirməyin. Təklifləri qəbul edin.

**ŞİR** - Ciddi məsələlərin həllində gözləmə mövqeyi tutmayın. Nəzərə alın ki, vaxt dardır və şansları qaçırmaq sizə uzun müddət sıxıntı verə bilər. Gümanınız gələn hər kəsə üz tutun.

**QIZ** - Yaxşı olar ki, vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırasınız. Çünki sonrakı saatlarda passivlik mümkündür. Yeni işgüzar sövdələşmələrdə iştirakınız səmərə verə bilər.

**TƏRƏZİ** - Yersiz risklərdən uzaq olun. Əgər iştirakçısı olduğunuz situasiyaları dərindən duymursunuzsa, inandığınız adamların məsləhətlərindən yararlanın. Vaxtınız əyləncələrə itirməyin.

**ƏQRƏB** - Maliyyə problemlərinizin mövcudluğuna baxmayaraq, bu gündən razı qalacaqsınız. Çalışın ki, görəcəyiniz işləri sistem halına salasınız. Qətiyyən tələskənliyə yol verməyin!

**OXATAN** - Bir neçə günlük süstlükdən sonra işləriniz artacaq. Xüsusən də nahardan sonra bərk yorulacağınız gözlənilsə də, zəhmətinizin bəhrəsini mütləq görəcəksiniz. Ailə üzvlərinizə hörmət edin.

**OĞLAQ** - Qərarlarınızda obyektiv olduğunuz təqdirdə mübarizədən çəkinməyin. Amma elə edin ki, ətrafınızda olanlar doğru yol tutduğunuzu qəbul etsin. Pulla bağlı sıxıntılarınız azala bilər.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu tarixdə tamamilə məxfi davranış nümayiş etdirməlisiniz. Belə ki, nəzərdə tutduğunuz planları, məqsəd və arzuları mümkün qədər ətrafınızda olanlara deməməlisiniz.

**BALIQLAR** - Yaxşı olar ki, bu təqvimi bütünlüklə qarşılıqlı münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki ulduzlar maliyyə və fəaliyyət sahəsində müəyyən gərginlik vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bədəninizdə 100-dən çox xal varsa...



**İtaliyanın "La Repubblica" qəzetində verilən xəbərə görə, London Kral Universitetinin bir qrup alimi, Cindy Crawford, Eva Mendes və Marilyn Monroe kimi qadınların gözəllik simvolu olan xalları əsas götürən araşdırma aparıb. Araşdırmada yaşları 18 və 79 arasında dəyişən və bir-birinə bənzəməyən 1200 qadın iştirak edib.**

Araşdırmanın nəticəsinə görə, yüzdən çox xalı olan insanların əzələləri daha gərgin, ürək və gözləri daha sağlam olur. Bu insanlar həmyaşıdları ilə müqayisədə ən az 7 yaş gənc görünür. Xalı çox olan insanların sümükləri də normaldan güclü olur. Bir çox insanın bədənində təxminən 30-40 xal olur, amma bəzilərində bu say 600-ə qədər yüksəlir.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300